

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**YAP-31: Vətənə bağlı şərəfli tarix!**


# SƏS

№ 212 (6895)

21 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik


## "Bu səfər əməkdaşlığımızda yeni səhifə açacaq"



2

## Vyetnam Azərbaycanla işbirliyinə böyük önəm verir



6

# Ermənistan KTMT-yə alternativ axtarır



*Ermənistanın baş naziri Nikol Paşinyan KTMT-nin (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) noyabrın 23-də Minskdə keçirilməsi planlaşdırılan sammitinə getməkdən imtina edib. O, parlamentdəki çıxışı zamanı qeyd edib ki, bu qərar özünə və hərbi bloka gələcək planlar barədə düşünmək üçün vaxt vermək istəyi ilə bağlıdır.*

8

## Maaş artımları inflyasiyanı kompensasiya edəcəkmi?



12

## Ermənistan Azərbaycana kimləri təhvil verəcək?




12

## Bakı yenə də diqqət mərkəzindədir



5

## Ali məktəblərdə dərslik problemi nədən qaynaqlanır?



16

# "Bu səfər əməkdaşlığımızda yeni səhifə açacaq"







***Azərbaycana rəsmi səfərə gələn İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin noyabrın 20-də rəsmi qarşılanma mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev İraq Prezidenti Əbdüllətif Camal Rəşidi qarşılayıb. Azərbaycan nümayəndə heyəti İraq Prezidentinə, İraq nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.***

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə təkbətək görüşü keçirilib. Dövlətimizin başçısı İraq Prezidentinin Qoşulmama Hərəkatının Zirvə toplantısı çərçivəsində Azərbaycana səfərini və keçirdikləri görüşü məmnuniyyətlə xatırladı. İraq Prezidentinin ölkəmizə ilk dəfə rəsmi səfərə gəlməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev bu səfərin və səfər zamanı aparılacaq müzakirələrin ölkələrimiz arasında əlaqələrin daha da inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı İqtisadi-ticari, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın yaxın vaxtlarda İraqda iclasının keçiriləcəyini və onun iqtisadi-ticari əlaqələrin daha da genişlənəcəyində mühüm rol oynayacağını dedi. İraq Prezidenti Azərbaycan ilə əlaqələrin daha da inkişafında əzmli olduqlarını vurğuladı, səfər çərçivəsində imzalanacaq sənədlərin əlaqələrimizin genişlənməsinə böyük töhfə verəcəyini bildirdi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birinin mövqelərini dəstəklədiyi məmnunluqla vurğulandı, Azərbaycanın və İraqın işğaldan əziyyət çəkdiyi, amma bu vəziyyətin keçmişdə qaldığı qeyd edildi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadiyyat, energetika, mədəniyyət, elm, təhsil və turizm sahələrində əməkdaşlıq məsələlərinin inkişafı üçün əlverişli imkanların olduğu bildirildi. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə geniş tərkibdə görüşü olub. Prezident İlham Əliyev görüşdə çıxış edib:

– Cənab Prezident, hörmətli qonaqlar, bir daha Azərbaycana xoş gəlmisiniz.

Biz artıq cənab Prezidentlə əməkdaşlığımız, regionlarımızda siyasi proseslərlə bağlı müxtəlif məsələlərə dair çox yaxşı müzakirə apardıq. İndi isə biz nümayəndə heyətlərinin iştirakı ilə vacib məsələlərin müzakirəsini davam etdirəcəyik. Gələn ay bizim nümayəndə heyəti birgə iqtisadi komissiyada iştirak etmək üçün İraqa səfər edəcək. Biz artıq ticarət, iqtisadi və enerji gündəliyimizlə bağlı məsələləri qismən müzakirə etdik.

Beləliklə, ilk növbədə, biz cənab Prezidenti Azərbaycana rəsmi səfərdə qəbul etməkdən çox şadıq. Bu, ikitərəfli əlaqələrimizin tarixində çox əlamətdar hadisədir. Bu, Azərbaycan müstəqil ölkə olandan bəri İraq Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Əminəm ki, səfər çox yaxşı nəticələr verəcək. Beləliklə, indi biz iqtisadi-ticari əməkdaşlıqla bağlı mühüm məsələlərin müzakirəsini davam etdirəcəyik. Əminəm ki, bu, həmçinin gələn ay Bağdadda keçiriləcək görüşün yaxşı nəticələrinə müsbət töhfə olacaq. Cənab Prezident, bir daha xoş gəlmisiniz.

Prezident Əbdüllətif Camal Rəşid:

– Təşəkkür edirəm, cənab Prezident, Sizi görmək hər zaman xoşdur. Əlaqələrin gücləndirilməsi, ticarət, siyasət, eləcə də beynəlxalq məsələlərə dair Sizdən məsləhət almaq çox yaxşı haldır. Biz iki ölkə arasında əlaqələrimizi daha da gücləndirməkdə çox qətiyyətliyik. Gələn ay sizin nümayəndə heyətini qəbul etməyi gözləyirik və ümidvaram ki, o, çox səmərəli olacaq. Azərbaycana bütün səfərlər səmərəli olur. Bu gün bizim nümayəndə heyətlərimiz iki ölkə arasında bəzi anlaşma memorandumlarının imzalanmasına hazırdır.

Dünən həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev və İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib. Dövlətimizin başçısı bildirib ki, bu səfər (İraq Prezidentinin rəsmi səfəri – Red.) ölkələrimiz arasında dostluq münasibətlərinin güclənməsinə töhfə verəcək və əməkdaşlığımızda yeni səhifə açacaq: "bu, diplomatik əlaqələr tarixi boyunca İraq Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Ona görə də bu, tarixi səfərdir.

Faktiki olaraq gələcək əməkdaşlığımız üçün əsas istiqamətləri müəyyənləşdirdik. Biz sözsüz ki, beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləməyə davam edəcəyik. İraq və Azərbaycan müxtəlif beynəlxalq təsisatlarda hər zaman həmrəylik nümayiş etdirir. Biz BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında hər zaman bir-birimizi dəstəkləyirik, bir-birimizin suverenliyini və ərazi bütövlüyünü müdafiə edirik".

"Biz Ermənistandan təklifimizə dair qeydləri gözləyirik. Biz bir neçə dəfə sülh müqaviləsinin layihəsi ilə bağlı təklifləri mübadilə etmişik. Lakin indi biz sentyabrın 11-dən bəri Ermənistan hökumətindən bu qeydlərlə bağlı rəyinin nədən ibarət olduğuna dair cavab verməsini iki aydan artıqdır ki, gözləyirik və bizə heç bir cavab gəlməyib."

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 20-də Bakıda İraq Prezidenti Əbdüllətif Camal Rəşid ilə mətbuata bəyanatında deyib.

Bunun səbəbinin ermənilərə pis məsləhətlərin, xüsusilə Fransadan pis məsləhətlərin verilməsi olduğunu qeyd edən dövlətimizin başçısı bildirib: "Fransa Cənubi Qafqazda çox destruktiv rol oynayır. Əslində, indi Ermənistan Fransa hökumətinin marionetinə çevrilib və bu, regional sabitliyə ciddi təhlükə ola bilər. Bizə heç bir müharibə lazım deyil. Biz öz ərazimizdə vuruşurduq və ədaləti, beynəlxalq hüquqi bərqərar etdik. Lakin Ermənistan hökuməti və siyasi establişmenti qisas haqqında düşünür. Fransa hökumətindən gələn yanlış mesajlar, əslində, Ermənistan hökumətində və ola bilsin ictimai rəyində onların Azərbaycana qarşı növbəti hərbi təcavüzə başlaya biləcəklərinə dair illüziya yaradır. Ermənistanı silahlandırmaqla, hansı ki, Fransa qürur duyur və bunu ictimai şəkildə bildirir, Ermənistan yeni bir müharibəyə başlamaq qərarı versə, bu, ona kömək etməyəcək. Nəticə eyni olacaq. Heç kəs onlara kömək etməyəcək. Üç il bundan əvvəl Fransa onlara kömək etdi? Xeyr. İki ay bundan əvvəl onlara kömək etdi? Xeyr. Onlar burada nə edə bilərlər. Heç nə".

Prezident İlham Əliyev vurğulayıb ki, qeydlərimiz ilə bağlı Ermənistandan nə qədər tez cavab alsaq, bir o qədər də yaxşı olar. "Ermənistan öz gələcəyini regionumuzdan uzaqda yerləşən ölkələrin ambisiyaları üzərində deyil, öz milli maraqlarına əsasən planlaşdırmalıdır. Xüsusilə qanlı müstəmləkə keçmişinə malik olan ölkələrin ambisiyaları üzərində qurmamalıdır. Bunların müstəmləkə siyasəti əsasən dünyanın müxtəlif yerlərində müsəlman əhalisinə qarşı yönəlmişdir. Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz. Ermənistan indi dünyanın müxtəlif yerlərində olan diaspor təşkilatlarından Azərbaycana hər yerdə hücum etmək üçün istifadə edir. Lakin onlar üçün bu, sıfır nəticə verəcək. Biz sülhə hazırıq, lakin ədalətli sülhə, hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında olan sülhə. Biz sağlam düşüncəyə və tarixi ədalətə əsaslanan sülhə hazırıq.

İki həftədən sonra nümayəndə heyətimiz hökumətlərarası komissiyanın yeni iclasının keçirilməsi üçün Bağdada səfər edəcək. Bizim qarşılıqlı ticarətin necə artırılması ilə bağlı böyük planlarımız var. Həmçinin bu gün enerji sahəsində əməkdaşlıq məsələsini də müzakirə etdik. Növbəti ay nümayəndə heyətimizin səfəri zamanı bu məsələ yenə müzakirə olunacaq. Növbəti həftələrdə bizim Kərkük, Ərbil və Bəsrə şəhərlərinə də birbaşa reyslərimiz olacaq. Biz hər iki istiqamətdə çox sayda turistlərin səyahət edəcəyini gözləyirik. Əlbəttə ki, biz vizaların verilməsi prosesini sadələşdirmək üçün növbəti hansı addımların atılmasını da müzakirə etdik. Əminəm ki, səfərin nəticələri çox yaxşı olacaq."

"Səfərimiz çox səmərəli və çox faydalı oldu." Bu barədə İraq Prezidenti Əbdüllətif Camal Rəşid Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata birgə bəyanatı zamanı bildirib.

"Əməkdaşlığımız keçmişdəkindən daha da güclü olmaq üzrədir. Biz bir çox fəaliyyət sahələrində - infrastrukturun inşası, ticarət, neft və qaz, transmilli layihələr, eyni zamanda, İraqa investisiyalar, eləcə də turizm və təhsilin, həmçinin iki ölkə üçün çox əhəmiyyət kəsb edən sahələrin təşviqi ilə bağlı əməkdaşlıq edə bilərik. İraqda biznes üçün və Azərbaycan üçün İraqda biznes imkanları ilə bağlı yeni bir mühit yaratmalıyıq. Eyni zamanda, Ermənistanla sülh müqaviləsinin yekunlaşdırılması məsələsində Sizə uğurlar arzulayıram. Düşünürəm ki, müharibə və münaqişələr yalnız vəziyyətin pisləşməsinə gətirib çıxara bilər. Bununla heç bir problem həll edilə bilməz. Hesab edirəm ki, bütün problemlərimiz dialoq, qarşılıqlı anlaşma və əməkdaşlıq əsasında həll olunmalıdır".- deyə Əbdüllətif Camal Rəşid əlavə edib.

# Azərbaycan ilə Vyetnam arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir








## *Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ilə Vyetnamın Baş Statistika İdarəsinin Baş direktoru arasında görüş keçirilib*

Noyabrın 19-da Vyetnam Sosialist Respublikasının paytaxtı Hanoyda Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ilə Vyetnamın Baş Statistika İdarəsinin baş direktoru xanım Nquyen Ti Suonq arasında görüş keçirilib.

Görüşdə ötən il diplomatik əlaqələrinin 30 illiyinin qeyd edildiyi Azərbaycan ilə Vyetnam arasında münasibətlərin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, hər iki ölkə müxtəlif sahələri əhatə edən çoxşaxəli əlaqələrin dərinləşməsində maraqlıdır.

Görüş zamanı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnamın Baş Statistika İdarəsi arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Xanım Nquyen Ti Suonq Vyetnamın Baş Statistika İdarəsinin fəaliyyəti haqqında ətraflı məlumat verərək statistika sahəsində Azərbaycanın təcrübəsinin ölkəsi üçün maraq doğurduğunu söyləyib. O, iki ölkənin statistika qurumları arasında əməkdaşlığı təmin etmək üçün real addımlar atmağa hazır olduqlarını bildirib.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov rəhbərlik etdiyi qurumun fəaliyyəti haqqında geniş məlumat verib, Azərbaycanda statistika sahəsində həyata keçirilən islahatlardan və innovasiyaların tətbiqindən bəhs edib. Dövlət Statistika Komitəsinin geniş beynəlxalq əlaqələrə malik olduğunu, bir sıra dövlətlərin müvafiq qurumları ilə səmərəli əməkdaşlıq etdiyini bildirən Tahir Budaqov bu sahədə faydalı işbirliyinin həyata keçirilməsi üçün yaxşı imkanların mövcud olduğunu vurğulayıb. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.




# YAP nümayəndə heyəti ICAPP Media Forumunun 6-cı iclasında iştirak edib

Noyabrın 17-19-da Koreya Respublikasının paytaxtı Seulda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Media Forumunun 6-cı iclası keçirilib.

16 ölkədən 18 siyasi partiyanın 40-a yaxın nümayəndəsinin və 21 jurnalistin iştirak etdiyi tədbirdə ölkəmizi Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov, YAP Gənclər Birliyinin üzvü, CBC TV-nin aparıcısı Anastasiya Lavrina və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin aparıcı məsləhətçisi, Yeni TV-nin aparıcısı Nurlana Mehdiyeva təmsil ediblər.

İclasda ICAPP-ın baş katibi Kvon He-seoq, ICAPP Daimi Komitəsinin sədri, Koreya Respublikasının keçmiş xarici işlər naziri Çunq Eu-yonq, ICAPP Media Forumunun həmsədri, Koreya Milli Assambleyasının üzvü, ICAPP Parlamentarilər İttifaqının sədr müavini Kanq Hunsik, ICAPP Daimi Komitəsinin həmsədri, Pakistan Senatının Müdafiə Komitəsinin sədri Müşahid Hüseyn Sayed çıxış ediblər.

Sonra ICAPP Media Forumunun Bürosunun yeni tərkibi müəyyənləşib. YAP İdarə Heyətinin üzvü Şahin İsmayılov da yeni tərkibdə yer alıb.

"Asiya cəmiyyətinin qurulmasında və siyasi demokratikləşmədə medianın rolu" mövzusunda keçirilən plenar sessiyada çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov media və siyasi partiyalar arasında əlaqələrin əhəmiyyətindən danışıb. O, demokratik cəmiyyətdə media və siyasi partiyalar arasında sağlam münasibətin qurulmasında media azadlığı, məsuliyyətli jurnalistika və qərəzsiz mövqe arasında tarazlığın vacibliyini önə çəkib.

Yeni Azərbaycan Partiyasının da mətbuat orqanları ilə sıx əməkdaşlıq etdiyini deyən Şahin İsmayılov partiyanın internet televiziyası və qəzetinin fəaliyyət göstərdiyini qeyd edib. O da vurğulanıb ki, siyasi plüralizmə böyük önəm verən Yeni Azərbaycan Partiyası digər partiyaların da mövqelərinin öz mətbu orqanlarında işıqlandırılmasına şərait yaradır.




YAP Gənclər Birliyinin üzvü, CBC TV-nin aparıcısı Anastasiya Lavrina isə ictimai şüurun formalaşmasında, habelə beynəlxalq münasibətlərdə və ölkələr arasında əlaqələrin inkişafında medianın rolundan bəhs edib. A. Lavrina diqqəti Azərbaycanla Ermənistan arasında 30 ilə yaxın davam edən münaqişəyə, Azərbaycanın öz gücü ilə torpaqlarını işğaldan azad etməsinə və Cənubi Qafqazda yaranan yeni reallıqlara yönəldib. Anastasiya Lavrina həm işğal, həm də postmüharibə dövründə sülhün bərqərar olmasında maraqlı olmayan qüvvələr tərəfindən Azərbaycana qarşı aparılan dezinformasiya siyasətinin regional təhlükəsizlik və sabitliyə mənfi təsir göstərdiyini qeyd edib. Bu kontekstdə dezinformasiya ilə mübarizədə jurnalistikanın dəstəklənməsi və təkmilləşdirilməsinin prioritet məsələlərdən olduğunu deyib.

İclasın sonunda ICAPP Media Forumunun yenilənmiş fəaliyyət qaydaları və müzakirələrin əsas nəticələrini özündə əks etdirən Seul Bəyanatı qəbul olunub.

# 2023-cü il: Yeni Azərbaycan Partiyasının uğurlu beynəlxalq əlaqələr ili







***Yaramasından 31 il keçən Yeni Azərbaycan Partiyası ötən illərin hər birində hakim partiya imicini qoruyub saxlamaqla, dövlətimizin inkişafı, Qarabağ və Şərqi Zəngəzurla bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılması, torpaqlarımızın işğaldan azad edilməsi, məcburi köçkünlərin hüquqlarının müdafiəsi və haqqlarının təmin olunması, ümumilikdə ölkə vətəndaşlarının sosial rifah halının yüksəlməsi, qarşıya çıxan problemlərin qısa zaman kəsiyində aradan qaldırılması istiqamətində atılan addımların və əldə olunan uğurlu nəticələrin ünvanıdır.***

Bütün bunlar həm də hakim partiyanın ölkədaxili fəaliyyəti ilə yanaşı, həm də xarici ölkələrlə əlaqələrində, əməkdaşlıq və işbirliyində müşahidə olunub. Bu günlər partiya Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Şimali Kipr Türk Cümhuriyyətində səfərdə olması, burada əhəmiyyətli görüşlərin keçirilməsi və sonda Anlaşma Memarandumunun imzalanması dediklərimizi bir daha təsdiq edir.

Bitməkdə olan ilə qısa nəzər

Başa çatmasına ayyarımlıq bir dövr qalan 2023-cü il, ümumilikdə Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrində uğurlu il kimi tarixə yazılmaqdadır. Yaranmasının 31-ci ildönümü ərəfəsində partiyanın nümayəndə heyətinin Şimali Kipr Türk Cümhuriyyətində səfərdə olmasından və burada böyük əhəmiyyətə malik görüşlərin keçirilməsindən yola çıxaraq il ərzində digər ölkələrlə əməkşaşlıq sahəsində həyata keçirilən mühüm tədbirlərdən bir neçəsinə nəzər salmaqla fikrimizi əsaslandırmaq istərdik.

Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin aprel ayının 15-də Türkiyənin Ədalət və İnkişaf Partiyasının İstanbul vilayət təşkilatında görüşü qarşısında duran yeni vəzifələrin həyata keçirilməsi kimi diqqətçəkən olmuşdir. Görüş zamanı məqsədlərə nail olunması üçün genişmiqyaslı fəaliyyətin həyata keçirildiyini vurğulayan Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 2021-ci ilin iyun ayının 2-də Türkiyəyə səfər zamanı Ədalət və İnkişaf Partiyası (AK Parti) ilə Yeni Azərbaycan Partiyası arasında imzalanmış əməkdaşlıq Sazişinin əhəmiyyətini vurğulamışdır. Qeyd edilmişdir ki, həmin Saziş imzalandıqdan sonra AK Parti ilə Yeni Azərbaycan Partiyası bir çox layihələri həyata keçirib, uğurlu əməkdaşlıq edib, qısa zaman kəsiyində hətta beynəlxalq səviyyəli tədbirlər də birlikdə reallaşdırılıb.

Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının regionda yeni reallıqlar yaratdığını söyləyən Tahir Budaqov postmünaqişə dövründə Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirdiyi bərpa-quruculuq işlərində Türkiyənin ölkəmizə verdiyi dəstəyi xüsusi vurğulayıb: Türkiyədə zəlzələ nəticəsində zərər çəkmiş bütün bölgələrdə aparılacaq quruculuq işlərində də ölkələrimiz birlikdə olacaq, bu işləri birgə həyata keçirəcək.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin sentyabrın 11-də Çin Xalq Respublikasına səfəri iki dövlət arasındakı dostluq münasibətlərinin inkişaf səviyyəsini, ölkə liderlərinin əlaqələrin dərinləşməsində müstəsna rolunun əhəmiyyəti bir daha ortaya qoydu. Səfər zamanı Azərbaycan-Çin münasibətlərinin hazırkı durumu və perspektiv imkanlarından söhbət açılması, Azərbaycanın "Bir kəmər, bir yol" layihəsini dəstəkləyən ilk ölkələrdən biri olduğunun xatırlanması, Zəngəzur dəhlizinin reallaşdırılmasının regional və beynəlxalq önəminin bir daha vurğulanması münasibətlərin inkişafının yeni mərhələsində böyük əhəmiyyətə malik olmuşdur. Qarşılıqlı münasibətlər Çin və Azərbaycanın ölkələrin ərazi bütövlüyü məsələsində sərgilədikləri mövqeyinin dəyişməz olduğunu bir daha gündəmə gətirmişdir.

Oktyabrın 14-də Nepalın paytaxtı Katmanduda keçirilən və 16 ölkədən 26 siyasi partiya nümayəndəsinin qatıldığı Asiya-Avropa Siyasi Forumunun (AEPF) 5-ci iclasında Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin iştirak isə daha yaddaqalan tarixdir. "Pandemiyadan sonrakı dövrdə maliyyə sabitliyinin qorunması" mövzusunda keçirilən ikinci sessiyada çıxış edən və koronavirus pandemiyasının geniş vüsət aldığı ilk vaxtdan etibarən həm əhalinin sağlamlığını qorumaq, həm də sosial-iqtisadi immunitet yaratmaq məqsədilə respublikamızda həyata keçirilən effektiv mübarizə tədbirlərindən bəhs edən YAP Sədrinin müavini Tahir Budaqov Azərbaycan iqtisadiyyatının pandemiyadan sonrakı mərhələyə hazırlanmasına elə pandemiya dövründə başlandığını vurğulayıb. T. Budaqov çıxışında Azərbaycanın pandemiya dönəmində dövlət siyasətinin təkcə milli məzmun kəsb etmədiyini, eyni zamanda, beynəlxalq əhəmiyyət daşıdığını söyləyərək bu kontekstdə Prezident İlham Əliyevin qlobal səviyyədə göstərdiyi təşəbbüsləri - Azərbaycanın uğurla sədrlik etdiyi Türk Şurasının və Qoşulmama Hərəkatının pandemiyaya qarşı mübarizəyə həsr olunmuş Zirvə görüşlərinin keçirilməsini, 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyasının baş tutmasını diqqətə çatdırıb. Azərbaycanın dünya miqyasında "peyvənd millətçiliyi"nə qarşı çıxması, Prezident İlham Əliyevin müxtəlif beynəlxalq təşkilatların tribunalarından birmənalı şəkildə peyvəndlərin ölkələr arasında qeyri-bərabər bölüşdürülməsinin yolverilməzliyi barədə çıxışları, eləcə də Azərbaycanın peyvəndlərə əlçatanlığı olmayan bir neçə ölkəyə vaksinlər və digər yardımlar göndərməsi, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində vəsait ianə etməsi də xüsusi qeyd olunub.

Həmçinin, Azərbaycanın suverenliyinə və konstitusiya quruluşuna təhdid yaradan revanşist hərəkətlərin günü-gündən artmasının Azərbaycanı 2023-cü il 19 sentyabr tarixində lokal xarakterli antiterror tədbirlərinin keçirilməsinə məcbur etdiyi və 24 saat ərzində qanunsuz hərbi birləşmələrin ləğv olunması, ölkənin bütün ərazisi üzərində suverenliyimizin tam bərqərar olunmasının təmin edilməsi vurğulanmış, növbəti mərhələdə Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun bərpası və orada yaşayan erməniəsilli əhalinin reinteqrasiyası, investisiyaların cəlb olunması, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsinin ölkəmiz qarşısında duran prioritet vəzifələr olduğu diqqətə çatdırılmışdır.

Şimali Kipr Türk Cümhuriyyəti: türk dövlətləri arasında növbəti əməkdaşlıq ünvanı

2022-ci ilin dekabr ayında Şimali Kipr Türk Cümhuriyyətində səfərdə olan Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin 14 noyabrda- cümhuriyyətin yaranmasının 40-cı ildönümündə yenidən buraya səfər etməsi YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun da dediyi kimi, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin dost ölkə və xalqlarla, o cümlədən Şimali Kipr Türk Cümhuriyyəti ilə münasibətlərin inkişafına xüsusi önəm verdiyinin, Türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində məqsədyönlü siyasətin həyata keçirildiyinin bariz göstəricisidir. Keçirilən görüşlərdə TDT-nin IX Zirvə Görüşündə Türkiyə ilə Azərbaycanın ortaq mövqeyi və siyasi iradəsi əsasında Şimali Kipr Türk Cümhuriyyətinin təşkilata müşahidəçi üzv statusunda qəbul olunmasının mühüm tarixi hadisə kimi böyük əhəmiyyətə malik olduğunu vurğulayan Tahir Budaqov müxtəlif sahələri əhatə edən çoxşaxəli və qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanların mövcud olduğunu, xalqlarımız arasında münasibətlərin yüksələn xətt üzrə inkişafının mühüm əhəmiyyət daşıdığını bildirib.

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, uzun müddət davam edən işğal faktına və separatizmə birdəfəlik son qoyması bütövlükdə regionda yeni situasiya yaradıb, həm respublikamız, həm də bölgə dövlətləri, o cümlədən dost və tərəfdaş ölkələr üçün yeni perspektivlər müəyyən edib: "Azərbaycanın formalaşdırdığı yeni geostrateji reallıqlar Türk dünyasında da etibarlı təhlükəsizlik və əməkdaşlığın təmin edilməsi baxımından xüsusi önəm daşıyır, regiona rifah və inkişaf vəd edir".

Anlaşma Memorandumu hakim partiyalar arasında məqsədyönlü işbirliyinin yol xəritəsidir

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü, Şimali Kipr Türk Cümhuriyyətinin isə 40-cı ildönümlərində qardaş xalqların hakim siyasi partiyaları arasında Anlaşma Memorandumunun imzalanması mühüm mənəvi-siyasi əhəmiyyətə malik hadisə kimi tarixi önəm daşıyır. Yaranmasının 31 ili ərəfəsinə təsadüf edən səfər çərçivəsində Yeni Azərbaycan Partiyası, Ədalət və İnkişaf Partiyası və Şimali Kipr Türk Cümhuriyyətinin hakim Ulusal Birlik Partiyası (UBP) arasında Anlaşma Memorandumunun imzalanması Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrində uğurla addımının davamıdır.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan, Türkiyə və Şimali Kipr Türk xalqları arasında münasibətlərin inkişafının mühüm prioritetlərdən biri olduğunu diqqətə çatdırıb. 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanan, işğal faktını və separatizmi birdəfəlik aradan qaldıraraq ərazi bütövlüyünü bərpa edən Azərbaycanın regional və beynəlxalq miqyasda önəmli geostrateji reallıqlar formalaşdırdığını vurğulayan Tahir Budaqov ölkəmizin tarixi Zəfərinin Türk dövlətləri üçün də yeni imkanlar və perspektivlər yaratdığını bildirib. YAP Sədrinin müavini mövcud gerçəkliklər fonunda Türk dövlətlərinin ortaq hədəflərə yönəlik birgə təşəbbüslərinin olduqca önəmli olduğunu söyləyib. Və "Bu kontekstdə Türk dövlətlərinin hakim siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi də zəruridir" ,- deyə vurğulayıb.

Tahir Budaqov yeni mərhələdə YAP, AK Parti və UBP arasında üçtərəfli əlaqələrin uğurla inkişaf edəcəyinə və qarşılıqlı faydalı əməkdaşlığın səmərəli nəticələr verəcəyinə əminliyini ifadə edib, diqqətə çatdırıb ki, Anlaşma Memorandumu çoxşaxəli işbirliyinin əsas istiqamətlərini və prioritetləri müəyyənləşdirən çox önəmli sənəddir. Memorandumdan irəli gələn vəzifələrin icra olunması, qarşılıqlı səfərlərin həyata keçirilməsi, ortaq maraqlara əsaslanan tədbirlərin reallaşdırılması, fikir və təcrübə mübadiləsinin aparılması xalqlarımız arasında əməkdaşlığın dərinləşməsinə töhfə olacaq, partiyalararası münasibətlərə dinamizm gətirərək müştərək hədəflərə çatmağa imkan verəcək. Bir sözlə, Anlaşma Memorandumu hakim partiyalar arasında məqsədyönlü işbirliyinin yol xəritəsi olacaq.

* * *

Yeni Azərbaycan Partiyasının 2023-cü ildə beynəlxalq əlaqələr sahəsində həyata keçirdiyi mühüm tədbirlərdən bir neçəsinə nəzər salmaqla bunların dövlətimiz və xalqımız üçün nə qədər əhəmiyyətli olduğu da göz önünə gəlir. Beləliklə, 31 il əvvəl Ümummilli Liderimiz Heydər Əliyevin iştirakı ilə yaranan və hakimiyyətdə təmsil olunan bu partiya xalqın partiyası olduğunu təsdiqləyib. Həm də Ulu Öndərin dediyi kimi, dünənin, bu günün və gələcəyin partiyası olmağı bacardığını da təsdiqləyib. Bunu keçdiyi 31 illik yoldakı uğurlar, dövlətin bugünkü inkişafı, xalqın rifahı, ən əsası isə şərəf məsələsini-torpaqlarımızın işğaldan azad olunmasını həll etməsi, ərazi büyövlüyümüzü və konstitusiya quruluşunu bərpa etməsi, ümumilikdə Böyük Zəfəri təsdiq edib.

***Mətanət Məmmədova***





# Bakı yenə də diqqət mərkəzindədir

***Bakı yenə də diqqət mərkəzindədir - "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfransa ev sahibliyi edir. Konfrans Qoşulmama Hərəkatının hazırkı sədri qismində Azərbaycan Respublikası ilə yanaşı, təsisatın növbəti sədrləri kimi Uqanda və Özbəkistanın birgə təşkilatçılığı ilə baş tutub.Tədbir Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun cari ilin iyul ayında nazirlər səviyyəsində təşkil edilən iclasında səsləndirdiyi təşəbbüslər əsasında keçirilir.***

## *Paytaxtımızda qadınların hüquqları və səlahiyyətləndirilməsi ilə bağlı beynəlxalq konfrans keçirilir*

Konfransda Qoşulmama Hərəkatı çərçivəsində qadın hüquqlarının inkişaf etdirilməsi və qadınların səlahiyyətləndirilməsi, habelə onların dayanıqlı inkişaf, iqtisadi artım, sülh və təhlükəsizlik məsələləri və digər sahələrdəki önəmli rolu kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb. Tədbirdə Qoşulmama Hərəkatına üzv ölkələrin, həmçinin təsisat yanında müşahidəçi statusuna malik dövlətlərin, beynəlxalq təşkilatların nümayəndələri, həmçinin xüsusi qonaq qismində dəvət olunan yüksək vəzifəli rəsmi şəxslər də daxil olmaqla, ümumilikdə 60-a yaxın nümayəndə heyəti iştirak edib.

Qeyd edək ki, Azərbaycan BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına (QH) 2019-cu ildən etibarən rəhbərlik edir. Ölkəmizin təsisata sədrliyi dövründə gördüyü işləri yüksək qiymətləndirən QH-nin üzv dövlətlərinin yekdil qərarı ilə Azərbaycanın sədrliyi daha bir il uzadılıb. Prezident İlham Əliyevin BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsi, peyvənd millətçiliyinə qarşı mübarizə və bu istiqamətdə qətnamələrin qəbul edilməsi Azərbaycanın QH-yə uğurlu sədrliyinin göstəricisidir. Azərbaycanın uğurlu sədrliyi nəticəsində bu gün Qoşulmama Hərəkatı dünyada multilateralizm nümunəsi kimi qəbul edilir.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda Konfransının iştirakçılarına müraciət edib. Prezident İlham Əliyevin Bakıda keçirilən Qoşulmama Hərəkatının "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda Konfransının iştirakçılarına müraciətində Azərbaycanda qadın hüquqlarının təmin olunması və onların cəmiyyətdə və dövlət idarəçiliyində rolunun artırılması daim diqqət mərkəzində olduğu fikirlər yer alıb. Bu gün də Azərbaycan qadınlarının elm, təhsil, səhiyyə, incəsənət və digər sahələrdəki əzmkar və çoxşaxəli fəaliyyətləri ilə ölkəmizin rifahına və tərəqqisinə dəyərli töhfələr verdiklərini qeyd edən dövlətimizin başçısı vurğulayıb: «Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin 63 faizini qadınlar təşkil edir. Dövlət tibb müəssisələrinin tibbi kadrlarının 70 faizi qadındır. Yerli özünüidarəetmə orqanlarında qadınların təmsilçiliyi 40 faizdir. Dövlət tərəfindən özünüməşğulluq proqramlarına göstərilən dəstək tədbirləri nəticəsində fərdi sahibkar qadınların sayı artmaqdadır».Dövlətimizin başçısının "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda Konfransının iştirakçılarına ünvanladığı müraciətində bildirilib ki, torpaqlarımızın Ermənistanın 30 illik işğalından azad olunmasında və tarixi Zəfərin qazanılması Azərbaycan qadınlarının vətənpərvərlik ruhunda tərbiyə etdiyi oğulların sayəsində mümkün olmuşdur: "Fədakar analarımızın Vətən sevgisinin bariz nümunəsi döyüş meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir".

### BƏZİ ÖLKƏLƏRİN YÜRÜTDÜYÜ "VAKSİN MİLLİYYƏTÇİLİYİ" SİYASƏTİNƏ SƏSSİZ QALMADIQ

"Biz bəzi ölkələrin yürütdüyü "vaksin milliyyətçiliyi" siyasətinə səssiz qalmadıq və vaksinlərin ədalətli şəkildə bölüşdürülməsini təşviq etdik. Humanist dəyərləri əsas götürərək Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatına üzv dövlətlər olmaqla 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım göstərdi. Bununla yanaşı, bu il Azərbaycan Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərində pandemiyanın fəsadlarının aradan qaldırılması məqsədilə maliyyə vəsaitinin ayrılması barədə qərar qəbul etdi".Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakıda keçirilən Qoşulmama Hərəkatının "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda Konfransının iştirakçılarına müraciətində yer alıb.Dövlətimizin başçısı, həmçinin qeyd edib: "Sədrliyimiz dövründə Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində də mühüm addımlar atılmışdı. Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Qoşulmama Hərəkatının Gənclər Təşkilatı təsis edilmişdir. Bu ilin iyul ayında Hərəkatın Bakıda keçirilmiş konfransı zamanı Qoşulmama Hərəkatının Qadınlar Platformasının yaradılması təklifi tərəfimdən irəli sürülmüşdür".

### FRANSANIN YÜRÜTDÜYÜ NEOKOLONİALİZM SİYASƏTİNİ QLOBAL SƏVİYYƏDƏ İFŞA ETMİŞİK

Prezident İlham Əliyevin Bakıda keçirilən Qoşulmama Hərəkatının "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda Konfransının iştirakçılarına müraciətində bildirilib ki, Azərbaycan sədrliyi dövründə (Qoşulmama Hərəkatına – red.) dekolonizasiya gündəliyinə xüsusi diqqət ayırmışdı: «Biz bəzi ölkələr, xüsusilə də Fransanın yürütdüyü neokolonializm siyasətini qlobal səviyyədə ifşa etmiş, bu utancverici praktikaya son qoyulması tələbini səsləndirmişik».

Kolonializm qadınların hüquqlarına da mənfi təsir göstərdiyini qeyd edən dövlətimizin başçısı bu xüsusda, konfransa paralel olaraq müvafiq mövzuda tədbirin keçirilməsini alqışlayıb: «Qadınların hüquqlarının müdafiəsi, cəmiyyətdə rolunun gücləndirilməsi Qoşulmama Hərəkatının gündəliyində önəmli yer tutur. Hərəkat tərəfindən ardıcıl olaraq qəbul edilmiş sənədlərdə, o cümlədən 2019-cu il Bakı Zirvə toplantısının yekun sənədində bu mövzuya xüsusi diqqət yetirilmiş və bu sahədə üzv dövlətlərin öhdəlikləri müəyyən edilmişdir».

Azərbaycanın BMT-dən sonra dünyada ikinci böyük beynəlxalq təşkilatına - Qoşulmama sədrlik etməsi ölkəmizin dünya birliyində qazandığı böyük nüfuzundan xəbər verir.

### PREZİDENT İLHAM ƏLİYEVİN HƏYATA KEÇİRDİYİ UĞURLU XARİCİ SİYASƏTİN NÖVBƏTİ TƏZAHÜRÜ - DAHA BİR İL

Azərbaycanın BMT-dən sonra dünyada ikinci böyük beynəlxalq təşkilatına - Qoşulmama sədrlik etməsi ölkəmizin dünya birliyində qazandığı böyük nüfuzundan xəbər verir. Qeyd edək ki, Qoşulmama Hərəkatına sədrliyi və belə mötəbər tədbirlərə ev sahibliyi etmək ölkəmizin multilateralizmə və qlobal həmrəyliyə verdiyi önəmin göstəricisidir. Məhz Qoşulmama Hərəkatına 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycanın Hərəkata sədrliyi bir il uzadıldı. Bəli, Azərbaycan 4 il sədrlik etməklə bir ilkə imza atdı. Qeyd edək ki, dünyanın ərazi, əhali və iqtisadi baxımdan güclü olan ölkələri bu hərəkatın üzvüdür və Qoşulmama Hərəkatı heç bir hərbi bloka qoşulmadan dünya miqyasında bütün problemlərin danışıq yolu ilə həll edilməsi və beynəlxalq hüququn əsas götürülməsini prioritet kimi götürür. 2019-cü ildə dünyada qazandığı siyasi nüfuza görə Azərbaycan bu təşkilatın sədri seçilməsi və təşkilat tarixində ilk dəfə olaraq sədrlik müddətinin bir il uzadılması Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin növbəti təzahürüdür.

Bir sözlə, bütün göstərilənlər onu deməyə əsas verir ki, dövlət başçısının təşəbbüsləri qlobal miqyasında beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Bu da onu göstərir ki, son 20 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisidir. Nəticədə isə, dövlət başçımızın dediyi kimi: bu görüş səmərəli və nəticəyönümlü müzakirələrlə yadda qalacaqdır. Çünki Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qoruyub.

Qeyd edək ki, "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda keçirilən beynəlxalq konfransda Qoşulmama Hərəkatı çərçivəsində qadın hüquqlarının inkişaf etdirilməsi və qadınların səlahiyyətləndirilməsi, habelə onların dayanıqlı inkişaf, iqtisadi artım, sülh və təhlükəsizlik məsələləri və digər sahələrdəki önəmli rolu kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb və dövləd başçımızın konfrans iştirakçılarına ünvanladığı müraciətində bildirdiyi kimi: "Əminəm ki, bu əlamətdar konfrans qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması ilə bağlı səmərəli fikir mübadiləsinin aparılması üçün əhəmiyyətli platforma rolunu oynayacaq və bu sahədə birgə fəaliyyətin aparılması üçün Qoşulmama Hərəkatının tarixində yeni bir dövrün başlanğıcının əsasını qoyacaqdır".

**RƏFİQƏ KAMALQIZI**



*Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Vyetnam Sosialist Respublikasına səfər edib.*



# Vyetnam Azərbaycanla işbirliyinə böyük önəm verir

## *YAP nümayəndə heyəti Vyetnamda səfərdədir*



Vyetnam Kommunist Partiyasının (VKP) dəvəti əsasında baş tutan səfər çərçivəsində noyabrın 20-də YAP nümayəndə heyəti ilə Vyetnam Sosialist Respublikasının xarici işlər nazirinin müavini Do Hunq Viet arasında görüş keçirilib. Nümayəndə heyətini salamlayan Do Hunq Viet Vyetnam ilə Azərbaycan arasında münasibətlərin yüksələn xətlə inkişafının məmnunluq doğurduğunu və qarşılıqlı faydalı əməkdaşlığın uğurla davam etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

Ölkəsinin Azərbaycanla işbirliyinə böyük önəm verdiyini bildirən Do Hunq Viet dostluq və tərəfdaşlıq əlaqələrinə malik olan iki ölkənin beynəlxalq platformalarda bir-birinə dəstək göstərdiklərini və milli maraqlara dair məsələlərdə ortaq mövqedən çıxış etdiklərini vurğulayıb. Xarici işlər nazirinin müavini beynəlxalq birliyin məsuliyyətli üzvü olan Vyetnamın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini diqqətə çatdırıb.

Do Hunq Viet ikitərəfli münasibətlərin dinamik inkişafı üçün geniş potensialın mövcud olduğunu bildirib. “Qarşılıqlı səfərlər müxtəlif sahələrdə təmasların gücləndirilməsi, təcrübə mübadiləsinin aparılması və əməkdaşlığın genişləndirilməsi baxımından böyük önəm daşıyır” ,- deyən Do Hunq Viet birgə fəaliyyət nəticəsində uğurlar qazanılacağına ümidvar olduğunu söyləyib.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Vyetnam əlaqələrinin möhkəm dostluq, etibarlı tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslandığını qeyd edib. O, xalqlarımız arasındakı dostluq münasibətlərinin hələ SSRİ dönəmində formalaşdığını, Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyətə malik olduğunu bildirib.

YAP Sədrinin müavini vurğulayıb ki, 2014-cü ildə Prezident İlham Əliyevin Vyetnam Sosialist Respublikasına dövlət səfəri ikitərəfli əlaqələrdə yeni səhifə açmış, dostluq prinsipinə əsaslanan qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsinə güclü təkan vermişdir. 2015-ci ildə isə Vyetnam Prezidenti Truong Tan Sangın Azərbaycana rəsmi səfəri ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən işbirliyinin genişlənməsinə mühüm töhfə olmuşdur.

Tahir Budaqov bu gün iki ölkənin liderlərinin siyasi iradələri sayəsində dövlətlərarası münasibətlərin genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atıldığını diqqətə çatdıraraq Azərbaycan ilə Vyetnamın bir-birinin maraqlarına hörmətlə yanaşdığını və ərazi bütövlüyünü dəstəklədiyini qeyd edib. Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində uzun müddət işğal altında olan torpaqlarını azad etdiyini, 2023-cü ilin sentyabr ayının 19-da cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində suverenliyinin tam bərpasına nail olduğunu vurğulayan YAP Sədrinin müavini Vyetnamın bu məsələdə ədalətli mövqeyinə görə təşəkkürünü bildirib. Azərbaycanın mühüm geostrateji reallıqlar yaratdığını bildirən Tahir Budaqov regionda yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşmasının dost və tərəfdaş ölkələr üçün də önəmli iqtisadi və siyasi dividendlər vəd etdiyini vurğulayıb.

Görüş zamanı siyasi partiyalar və parlamentlər arasında əlaqələrin Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı baxımından əhəmiyyəti diqqətə çatdırılıb, hökumətlərarası komissiyanın növbəti iclasının tezliklə baş tutacağına əminlik ifadə olunub. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsi müdirinin müavini Hülya Məmmədli daxildir.

# “Ağdamın minalardan təmizlənib cənnətə çevrilməsini bütün dünya görəcək”

***“Noyabrın 20-də Ağdam rayonunun Ermənistan Silahlı Qüvvələrinin işğalından azad edilməsinin 3-cü ili tamam olur. İşğalçı Ermənistan Silahlı Qüvvələrinin Ağdamı tərk etməsi Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi liderliyi, sərkərdəlik qabiliyyəti və Azərbaycan Ordusunun Vətən müharibəsindəki uğurlu hərbi əməliyyatları nəticəsində mümkün oldu.***

Azərbaycan, Rusiya və Ermənistan liderlərinin noyabrın 10-da imzaladığı Qarabağ üzrə üçtərəfli bəyanata əsasən Ağdam rayonu 2020-ci il noyabrın 20-də Azərbaycan Respublikasına təhvil verildi. 2020-ci il noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunmuş Ağdam şəhərinə səfər etdilər. Prezident İlham Əliyev Ağdam şəhərində Azərbaycan bayrağını qaldırdı. Ağdam 1993-cü ilin 23 iyul tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. İşğaldan əvvəl Ağdamda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi. Onların hamısı ermənilər tərəfindən vəhşicəsinə dağıdılmışdır”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib.

ŞƏRH EDİLDİ




Onun sözlərinə görə, Ağdam rayonu Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində – Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir: ”Qarabağın ürəyi sayılan Ağdamın qədim tarixi abidələri minillik keşməkeşli illərdən keçərək bu günə qədər gəlib çatmışdır. Rayonun ərazisində XX əsrin 50-ci illərindən başlayaraq aparılan arxeoloji tədqiqat işləri zamanı Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biri olduğu məlum olmuşdur. Tanınmış arxeoloq İdeal Nərimanovun Üçoğlantəpə deyilən yerdə apardığı arxeoloji tədqiqatlar zamanı müəyyənləşdirilmişdir ki, ilk qədim insanlar rayon ərazisində altı-səkkiz min il bundan əvvəl, yəni, Eneolit dövründə (e.ə. IV-VI minilliyi əhatə edir, “misdaş” dövrü adlanır) yaşamış, qədim əkinçilik və maldarlıq mədəniyyətinə bələd olmuşlar. ”Ağdam” sözü qədim türk dilində ”kiçik qala” deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. Zaman keçdikcə bu şəhərin adının mənası dəyişdi. XVIII əsrin birinci yarısında Qarabağlı Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirmək barədə əmr verib. Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün bir növ oriyentirə çevrilib. Bu mənada ”Ağdam” — günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev deməkdir. Sahəsi 1150 kvadrat km olan rayonun relyefi əsasən düzənlik, qismən dağlıqdır. Ermənilər Ağdam rayonu ərazisinin 846,7 kvadrat kilometrini, yəni ümumi ərazisinin 77,4 faizini işğal etməyə nail olmuşdular”.

Deputat sözlərinə davam edərək bildirib ki, rayonun 202 200 nəfər əhalisi var: ”Hazırda məcburi köçkün həyatı yaşayan əhali Respublikanın müxtəlif şəhər və rayonlarında məskunlaşıb. Qısa müddətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün bərpa işləri aparılmaqdadır və Ağdam yenidən ölkəmizin ən abad və gözəl bölgələrindən birinə çevriləcəyinə şübhə yoxdur. Artıq Ağdam öz sahiblərinə qovuşub. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilmişdir. Sözügedən Sərəncama əsasən 20 noyabr Ağdam şəhəri günü kimi müəyyən olub”.

***Ləman Sərraf***

# Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişi imzalanıb










*Vyetnam Sosialist Respublikasında səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti ilə Vyetnam Kommunist Partiyasının (VKP) Mərkəzi Komitəsinin katibi, Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Le Hoay Çunq arasında görüş keçirilib.*







Əvvəlcə Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişinin imzalanması mərasimi olub. Sazişi YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və VKP Mərkəzi Komitəsinin katibi, Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Le Hoay Çunq imzalayıblar.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətini ölkəsində görməkdən məmnunluğunu ifadə edən Le Hoay Çunq Vyetnamın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib. İki ölkənin milli maraqlara hörmət və beynəlxalq hüquq normalarına sadiqlik prinsiplərinə daim əməl etdiklərinə diqqəti yönəldən VKP Mərkəzi Komitəsinin katibi qeyd edib ki, istər Azərbaycan, istərsə də Vyetnam müstəqil siyasət yürüdən dövlətlər kimi beynəlxalq münasibətlər sistemində ədalət və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan siyasi nizamın tərəfdarlarıdır. "Biz dövlətlər arasında münasibətlərin sağlam məcrada, konstruktiv müstəvidə, beynəlxalq hüquq normaları əsasında inkişafını dəstəkləyirik" ,- deyə Le Hoay Çunq əlavə edib.

Daimi təmasların istər ölkələr, istərsə də siyasi partiyalar arasında münasibətlərin inkişafı baxımından böyük önəm daşıdığını bildirən Le Hoay Çunq Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında sıx əlaqələrin olduğunu vurğulayaraq qarşılıqlı səfərlərin önəmini diqqətə çatdırıb. VKP rəsmisi partiyasının YAP ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu söyləyərək Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin səfərinin dostluq münasibətlərinin gücləndirilməsinə xidmət edəcəyinə əminliyini bildirib: "Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında Əməkdaşlıq Sazişinin imzalanması əlamətdar hadisədir. Bu genişmiqyaslı əməkdaşlıq çərçivəsində görəcəyimiz işlər həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı olacaq, müəyyənləşdirdiyimiz hədəflərin gerçəkləşməsini təmin edəcək".

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ötən il Azərbaycan ilə Vyetnam arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladaraq ölkələrimizin bu müddət ərzində ikitərəfli və beynəlxalq platformalar çərçivəsində münasibətləri inkişaf etdirərək əhəmiyyətli nailiyyətlər qazandıqlarını bildirib. Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərini xatırladan Tahir Budaqov Azərbaycan-Vyetnam dostluq münasibətlərinin tarixi köklərə söykəndiyini diqqətə çatdırıb. "Dövlətlərimiz arasında münasibətlərin inkişafını təmin edən mühüm amillərdən biri, şübhəsiz ki, qarşılıqlı səfərlərin həyata keçirilməsidir" ,- deyən YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnam Sosialist Respublikasına dövlət səfəri və Vyetnam Prezidenti Truong Tan Sangın 2015-ci ildə Azərbaycana rəsmi səfəri dövlətlər arasında ikitərəfli və çoxşaxəli münasibətlərin inkişafına təkan verərək iqtisadi, siyasi, mədəni-humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşməsinə etibarlı zəmin yaratmışdır.

2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində Qələbə qazanan və 2023-cü ilin sentyabrın 19-da həyata keçirilən antiterror tədbirləri ilə ölkə ərazisində separatizmin birdəfəlik ləğvinə nail olaraq BMT Təhlükəsizlik Şurasının uzun müddət kağız üzərində qalmış 4 qətnaməsinin icrasını təmin edən Azərbaycanın ərazi bütövlüyü, konstitusiya quruluşu və suverenliyini tam bərpa etdiyini vurğulayan YAP Sədrinin müavini Vyetnamın ölkəmizin ədalətli mövqeyini dəstəkləməsini minnətdarlıqla vurğulayıb. Tahir Budaqov Azərbaycanın yaratdığı yeni geostrateji reallıqlar fonunda aktual çağırışların meydana çıxdığını söyləyib. "Yeni Azərbaycan Partiyası bu tarixi mərhələdə yeni dövrün çağırışlarından, eləcə də dövlətin və partiyanın qarşısında duran prioritetlərdən irəli gələrək beynəlxalq əlaqələrin inkişafına da böyük önəm verir və sistemli siyasət həyata keçirməklə bu istiqamətdə məqsədyönlü addımlar atır. Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi də bu siyasətin mühüm tərkib hissəsidir" ,-deyə YAP Sədrinin müavini vurğulayıb.

Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında münasibətlərin inkişafının diqqət mərkəzində olduğunu bildirən Tahir Budaqov deyib: "Biz dövlət başçılarının siyasi iradələrinə uyğun olaraq Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlığın genişlədirilməsi yönündə müvafiq addımlar atırıq. YAP ilə VKP ikitərəfli əlaqələrlə yanaşı, ICAPP çərçivəsində də səmərəli işbirliyi həyata keçirir".

Ötən il Vyetnam Kommunist Partiyasının nümayəndə heyətinin ölkəmizə səfər etdiyini və YAP ilə VKP arasında səmərəli fikir mübadiləsinin aparıldığını söyləyən Tahir Budaqov qeyd edib ki, qarşılıqlı səfərlərin həyata keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması, əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi də bu baxımdan olduqca əhəmiyyətli və faydalıdır: "Bu gün partiyamızın nümayəndə heyətinin səfəri çərçivəsində Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişinin imzalanması partiyalararası münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoyacaq, çoxşaxəli əməkdaşlığın dərinləşməsinə xidmət edən siyasi və hüquqi əsasları daha da möhkəmləndirəcəkdir. Sazişdən irəli gələn vəzifələrin icra olunması nəticəsində əlaqələrin uğurla inkişaf edəcəyinə şübhə yoxdur".

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsi müdirinin müavini Hülya Məmmədli daxildir.

# Ermənistan KTMT-yə alternativ axtarır

*Ermənistanın baş naziri Nikol Paşinyan KTMT-nin (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) noyabrın 23-də Minskdə keçiriləməsi planlaşdırılan sammitinə getməkdən imtina edib. O, parlamentdəki çıxışı zamanı qeyd edib ki, bu qərar özünə və hərbi bloka gələcək planlar barədə düşünmək üçün vaxt vermək istəyi ilə bağlıdır. Əvvəla, İrəvan KTMT-nin Azərbaycanın guya 2021-2022-ci illərdə, ermənilərin hesablamalarına görə, "50, yaxud 127 kvadrat kilometrə qədər ərazinin işğal edildiyi" əməllərini təcavüz adlandırmamasından narazıdır. Bu yanaşmanın əleyhdarları hesab edir ki, iki ölkə arasında sərhəd müəyyən edilmədiyindən kimin kimin torpağını işğal etdiyini dəqiq söyləmək mümkün deyil.*



Paşinyan isə deyib ki, mövqelərlə bağlı ən mühüm fakt ondan ibarətdir ki, təəssüf ki, KTMT de-yure məcburi öhdəliklərinə baxmayaraq, Ermənistanın təhlükəsizlik çağırışlarına lazımi cavab verməyib: "Bu, bir neçə dəfə olub. Bütün həmkarlarımıza hörmətlə bildiririk ki, niyə biz hər dəfə ora gedib heç bir cavab almadan eyni şeyi təkrarlayırıq, sonra qayıdırıq?". Ermənistan liderinin sözlərinə görə, KTMT Ermənistanda öz məsuliyyət zonasını de-yure qeydiyyata almaqdan imtina edir. Bundan Paşinyan belə qənaətə gəlib ki, bu təşkilatın tədbirlərində iştirak onun ölkəsinin ərazi bütövlüyünü və suverenliyini şübhə altına ala bilər. Buna baxmayaraq, İrəvan "dissonans" yaratmamaq üçün KTMT-dən çıxmaq məsələsini həll etməyənə qədər siyasətində dəyişiklik elan etmək niyyətində deyil.

Baş nazir onu da qeyd edib ki, İrəvan hələ də Azərbaycanla sərhəddə təhlükəsizliyə nəzarət etmək üçün Ermənistana KTMT missiyasını göndərməkdən imtina etməyib. Lakin, ilk növbədə, İrəvanın müttəfiqləri, onların fikrincə, Ermənistan sərhədlərinin harada olduğunu göstərməlidirlər. Bu olmasa, Paşinyana görə, bir tərəfdən Ermənistanın imici sarsılacaq, digər tərəfdən isə onun "Azərbaycan işğalı" adlandırdığı hadisənin legitimliyi yaranacaq.

Bu arada Belarus rəhbəri Aleksandr Lukaşenko erməni həmkarının sammitə getmək istəməməsindən xəbər tutaraq, ona təşkilatı parçalanmağa yönəlmiş tələsik qərarlar qəbul etməməyi tövsiyə edib. Belarus prezidentinin mətbuat xidmətinin verdiyi məlumata görə, o, öz təcrübəsinə və oxşar vəziyyətlərdə bəzi digər "tanınmış siyasətçilərin" hərəkətlərinə əsaslanıb.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Kremlin Ermənistan baş nazirinin qərarından təəssüfləndiyini bildirib: "Biz başa düşürük ki, hər bir hökumət başçısı və ya dövlət başçısının iş qrafikində öz tədbirləri, öz şəraiti ola bilər. Ancaq təəssüf hissi ifadə etməyi olar, çünki belə görüşlər fikir mübadiləsi və qeydlərin müqayisəsi üçün çox yaxşı fürsətdir".

Maraqlıdır ki, Azərbaycanın hərəkətləri ilə bağlı Ermənistanda konsensus olsa da, heç də hamı







baş nazirin KTMT ilə bağlı yanaşması ilə razılaşmır. Məsələn, 2008-2016-cı illərdə bu ölkənin Müdafiə Nazirliyinə rəhbərlik etmiş, parlamentin müxalifətdəki "Hayastan" fraksiyasının rəhbəri Seyran Ohanyan çətin hərbi-siyasi şərtlər daxilində vəziyyətin bərpasından imtina etdiyini bildirib. Ohanyan vurğulayıb ki, zirvə görüşünə qatılmaq ölkəyə yalnız problemlər gətirəcək: "Biz bu alyansın üzvüyük. Bir çox hallarda münasibətlərin pisləşməsi Ermənistan hakimiyyətindən asılı olub".

Onun blokdakı həmkarı, Daşnaksütyun partiyasının üzvü Armen Rüstəmyan isə qeyd edib ki, Ermənistanın hazırkı siyasətini təhlükəsizlik mənbələrinin diversifikasiyası adlandırmaq olmaz. Onun fikrincə, Rusiyanın Qərblə qarşıdurması fonunda ölkə bir düşərgədən digərinə keçir və bunun ağır nəticələri ola bilər. Yaxşı olardı ki, qarşıdurmadan öz xeyrinə istifadə etməyi bacaran düşmənlərimizdən öyrənə bilsək. Biz bu münaqişəni öz üzərimizə götürürük.

Buna baxmayaraq, erməni politoloq Conni Melikyan bildirib ki, İrəvanın KTMT-dən çıxması üçün heç bir ilkin şərt yoxdur, lakin onun təşkilat daxilində fəaliyyəti dondurulub. Ermənistan hərbi blokun baş katibinin müavini vəzifəsindən imtina edib, onun tədbirlərində də iştirak etmir. Bu yolla Ermənistan diqqəti Azərbaycanın hərəkətləri probleminə cəlb etməyə çalışır. KTMT tərəfdaşlarının Ermənistanın ərazi bütövlüyünə necə baxdığını öyrənmək lazımdır. Eyni zamanda, unutmaq olmaz ki, İrəvan son vaxtlara qədər blokun həyatında fəal iştirak edirdi. Onun sədrliyi ilə Qazaxıstana sülhməramlı missiya göndərilib və bundan əvvəl Ermənistan hərbçiləri Rusiyaya dəstək üçün Suriyaya gediblər.

Melikyanın sözlərinə görə, qarşıdurma diplomatik kanallarla gedir və ictimai görüşlərdə iştirakdan imtina problemin hələ də həll olunmadığını simvollaşdırır. Politoloq hesab edir ki, Paşinyanın sammitdə iştirakı onun ölkəsinin problemlərinin İrəvanda deyildiyi kimi ciddi olmadığı görüntüsü yarada bilər: "KTMT üzvləri öz mövqelərini möhkəmləndirmək üzərində işləməlidirlər və hər şeyin normal olduğunu iddia etməməlidirlər. Bu, təkcə Ermənistana aid deyil. Tacikistanla Qırğızıstan arasında vaxtaşırı döyüşlər gedir".

O, həmçinin bildirib ki, Ermənistanın KTMT üzrə tərəfdaşlarının Azərbaycanla mübahisə etmək istəməməsi bəhanə ola bilməz. Nümunə kimi o, Avropa İttifaqını göstərib, onun nümayəndələri Azərbaycanla da ticarət edir, lakin bunun üçün ciddi səbəb varsa yenə də onu tənqid edirlər. "Bəzən müəyyən məqamları qeyd etmək lazımdır ki, hamı qırmızı xətlərin olması barədə bilsin. Paşinyanın çıxışı son üç ildə Cənubi Qafqazda baş verən hadisələrlə bağlıdır. Ermənistan hakimiyyəti KTMT-nin öz ölkələrinin təhlükəsizliyinin təmin olunmasına daha mühüm töhfə verəcəyinə ümid edirdi. Lakin bu təşkilatı Aİ və ya NATO ilə müqayisə etmək düzgün deyil. Yaxın gələcəkdə blokun Mərkəzi Asiyadan olan üzvləri iqtisadi və siyasi səbəblərə görə Bakıya qarşı çıxmayacaqlar. Paşinyan bunu bilir, lakin bəyanatlarını respublikanın təhlükəsizliyi üçün məsuliyyətdən azad etmək istəyi əsasında verir.

Eyni zamanda, ekspertlər daha vacib məsələlərə toxunaraq qeyd eirlər ki, KTMT nə qədər effektiv olsa da, İrəvanın hələ də alternativi yoxdur. Əgər Paşinyan təşkilatın işindən razı deyilsə, onu daxildən dəyişmək lazımdır. Bunun üçün mövcud olan çərçivədə işləmək lazımdır, əksinə Ermənistan hakimiyyəti ancaq öz narazılıqlarından danışır. Eyni zamanda onlara qarşı iddialar da irəli sürülə bilər: niyə Azərbaycanla sülh müqaviləsi yoxdur, sərhəd yoxdur. Paşinyan biləRəkdən KTMT problemlərini və İrəvanın Moskva və Bakı ilə ikitərəfli münasibətlərini birləşdirir. Bunun sayəsində o, tənqiddən qaçmaq və uğursuzluqlarının səbəblərini öz əhalisinə izah etmək üçün asandır. Lakin Ermənistanın problemlərini başa düşmək üçün bütün bunları müxtəlif istiqamətlərdə ayırmaq lazım gələcək.

Hər halda, KTMT ölkələrinin Azərbaycanın hərəkətlərini təcavüz kimi təsnif etmək istəməməsi Ermənistanın təşkilatdan çıxmasına səbəb olmayacaq. Bunun üçün daha ciddi və faciəli səbəblər lazımdır. Belə güman edilir ki, Ermənistanın üzvlüyü dondurulmuş olaraq qalacaq, baxmayaraq ki, bu açıq elan olunmaya bilər.

**V.SALAH**

YENİ BAXIŞ

# "Nar" yerli telekom peşəkarlarını yetişdirir




"Nar" Azərbaycan Texniki Universiteti (AzTU) ilə birgə tələbələr üçün "Mobil rabitənin əsasları" təlimi təşkil etdi. Rabitə sahəsinin peşəkar kadrlarını hazırlamaq məqsədilə keçirilən təlim "Nar" GSM laboratoriyasında baş tutdu. "Nar"ın peşəkar texniki heyəti tərəfindən hazırlanan təlimlərin mövzusu müxtəlif nəsil mobil texnologiyaların iş prinsipləri, əşyaların interneti və cihazlararası bağlantı kimi sahələri əhatə edir. Təlimdə iştirak edən tələbələr təcrübədə əldə edilən biliklərə yiyələnir və gələcək işləri barədə bilmək istədiklərini "Nar" texniki heyətindən öyrənir. Sonda tələbələr "Nar"ın sertifikatı ilə təltif edilir.

Budəfəki təlim zamanı, "Nar" GSM Laboratoriyası üçün 10 ədəd müasir noutbuk da təqdim edildi. Xüsusi proqram təminatları vasitəsilə bu noutbuklar GSM avadanlığının işini tənzimləyir və tələbələrə verilən tapşırıqları daha operativ həyata keçirməyə imkan yaradır. 2013-cü ildə imzalanmış əməkdaşlıq memorandumu əsasında universitetin nəzdində yaradılan "Nar" GSM laboratoriyası tələbələrin mobil rabitə cihazlarını istifadə və tədqiq etməyə imkan yaradır. Artıq 10 ildir ki, "Nar" və AzTU arasında faydalı əməkdaşlıq uğurla davam edir.

"Nar" layihələri haqqında ətraflı məlumatı nar.az/projects səhifəsindən əldə edə bilərsiniz. Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

***Silah əldə etdikləri barədə haylar qədər hər dəfə hay-küy qoparan toplum, Ermənistan qədər bunu nümayişkaranə şəkildə edən ölkə yoxdur. Sonuncu dəfə Fransadan aldığı 20 ədəd zirehli transportyor barədə aləmə car çəkən Ermənistan və həmin ölkənin mətbuatıdır. Bu şəkildə hay-küy salmaq, silah alındığı barədə məlumatı yaymaq işğalçı ölkənin nəyinə lazımdır, deyə bir sual hər kəsi düşündürür. Hərbi texnikanın, silah-sursatın alınması ilə öyünmək fikrindədirlər, yoxsa bununla təskinlik tapırlar? Hər halda, bu ritorik suallar mahiyyəti açıb ortaya qoymaq üçün olduqca vacibdir.***

TƏHLİL

# Erməni cəmiyyətinə ünvanlanan RİTORİK SUALLAR







Əldə etdikləri zirehli transportyorları ermənilər elə təqdim edirlər ki, elə bil Fransanın silah arsenalı yığıb-yığışdırılıb Ermənistana gətirilib. Halbuki cəmi 20 ədəd zirehli transportyorlar əldə ediblər. Hələ o da bilinmir ki, gətirilən zirehli transportyorlar döyüşə yararlıdır, yoxsa yox. Yaxud gətirilən hərbi texnikanın nə dərəcədə imkanlara malik olduğu da sual doğuran məqamdır. Şübhə etmirik ki, eyni indiki kimi pulsuz şəkildə Rusiyadan aldıqları silahların döyüş meydanında yararsız olduğunu bir zaman bəyan edən ermənilər eyhamı çox yaxşı başa düşərlər. Çox güman ki, həmin zirehli maşınlar elə şəxsən Nikol Paşinyan əleyhinə təşkil oluna bilən etiraz aksiyalarını yatırmaq üçün ermənilərin özlərinə qarşı istifadə edilməyə yararlı ola bilər. Hətta onların məhz elə etiraza aksiyalarını dağıtmaq, etirazçıları qovmaq üçün gətirilməsi daha inandırıcı versiyadır. Əvvəla ona görə ki, 20 ədəd zirehli transportyor döyüş, müharibə üçün indiki dövrdə çox az sayda hərbi texnika deməkdir və sonuncu anti-terror tədbirləri zamanı Ermənistan tərəfinin cəmi bircə sutkadan da az müddət ərzində itirdiyi, erməni əsgərlərin qoyub qaçdığı hərbi texnikanın sayı ilə müqaisədə çox gülünc saydadır. Digər tərəfdən də, Paşinyan başa düşür ki, Rusiyanın son dərəcə qıcıqlanması fonunda İrəvanda etiraz dalğasının qalxması an məsələsidir və erməni baş nazir fransızların göndərdikləri texnikanın istifadəsini elə həmin etirazların yatırılması üçün çox güman ki, nəzərdə tutur. Halbuki, ermənilər zirehli transportyorların göndərildiyinə görə bərk sevincək olublar və həvəslə bu barədə aləmə car çəkirlər.

Hindistandan hərbi yardım aldıqları barədə hay-küy salan haylar buna görə də əbəs yerə sevincək olublar. Silah-sursat alındığı barədə pafosla car çəkənlər özləri hamıdan yaxşı bilirlər ki, Hindistandan alınan cəmisi 150 min qumbaradır. Axı bu barədə özləri məlumat yayıblar və bilməmələri mümkün də deyil. Bilirlər ki, bu zamana qədər Rusiyadan aldıqları qumbaraları, ruslardan əlləri üzüldükdən sonra indi də Hindistandan alıblar və yeni nə isə artırmayıblar. Elə isə kimə nə göstərmək istəyirlər və bununla loğalanmaqmı fikrindədirlər? Yəni, həqiqətən də düşünürlər ki, 150 min ədəd qumbara onları "arzularına çatdıracaq" və bununla da iş bitəcək? Yəqin ki, 44 günlük müharibə zamanı Azərbaycanın döyüş qabiliyyətini və hərbi-texniki imkanlarını görənlər çətin ki, belə düşünə bilələr. Ordumuzun hər baxımdan müqaisəyə gəlməyəcək dərəcədə üstünlüyü fonunda qumbara almaqlarına görə sevincək olmaq çox, özü də həddindən artıq gülünc məqam deyilmi?

Araqatsotn vilayətinə bir neçə il bundan əvvəl etdiyi səfər zamanı Nikol Paşinyanın Rusiyadan alınan Su-30SM təyyarəsində bir selfi çəkdirdiyini yaxşı xatırlayırıq. Hətta onun fotoşəkildə necə həyasızcasına qımışdığı, yəni güldüyü də yaddan çıxan deyil. O da yaddan çıxan deyil ki, 2020-ci ilin 3 iyul tarixində erməni baş nazir paylaşdığı videoda bildirmişdi ki, Su-30SM-lər döyüş atışı ilə ilk təlim uçuşlarını həyata keçirib, "hücum əməliyyatı" üçün raketləri sınaqdan keçirib. Bununla belə onun, həmin o Su-30SM təyyarələrini raketsiz aldığı barədə dediklərini də xatırlayırıq. Bir sözlə, birbirini təkzib edən açıqlamaları ilə Nikol diqqəti yaxşıca cəlb etmişdi. Onun ziddiyyətli fikirləri barədə müxtəlif şərhlər verən erməni siyasi-ictimai dairələrinə də Nikol ağlına gələn yalanı danışmaqla vəziyyətdən çıxmağa çalışırdı. Amma buna baxmayaraq, yəni Vovayeviçin yalanlarına məhəl qoymadan, erməni cəmiyyəti hələ o zaman açıq şəkildə bildirirdi ki, raketsiz təyyarələri Paşinyan yalnız öz şəklini çəkmək üçün alıbmış və bunun üçün də Ermənistan büdcəsindən 130 milyon dollar vəsait xərclənib. Daha dəqiq desək, erməni cəmiyyəti Nikol Paşinyanın dövlət büdcəsindən 130 milyon dolları təkcə bir selfi çəkmək üçün xərclədiyini bildirirdi. Bir sözlə, erməni cəmiyyəti özü daha yaxşı bilir ki, erməni baş nazirin etdikləri, Su-30SM təyyarəsində çəkdirdiyi şəkil bir reklam, bir göstərmə idi. Eyni ilə indi erməni cəmiyyətinin, hayların hay salaraq, Fransadan göndərilən zirehli transportyorlar barədə yaymaları da sadəcə göstərmədir. Yəni, göstərmə üçün edilən yayımlar, çəkilən video, foto görüntülər ermənilərə məxsus dəyişməz ənənədir və bu ənənəyə erməni cəmiyyətində baş nazirdən tutmuş sıravi erməniyə qədər hər kəsin "sadiq" qaldığı göz önündədir. Göz önündə olan odur ki, Su-30SM təyyarələri 44 günlük müharibə zamanı heç havaya da qalxmadı. Çünki raketsiz həmin bu təyyarələr yalnız metal bir konstruksiyadan başqa bir şey sayıla bilməzdi. Amma sözügedən təyyarələri əldə etdikdən sonra Hovhannisyan və Paşinyan təbliğatı erməni ordusunun "görünməmiş" dərəcədə güclənməsi barədə səs yaymağa, hay-küy salmağa başlamışdı. Qarabağ müharibəsinin 44 günü boyunca bir dəfə də olsa istifadə edilməyən, ümumiyyətlə, istifadə edilə bilməyəcək təyyarədə çəkilən şəkil və bu barədə paylaşımlar sadəcə Nikol Paşinyan üçün bir PR, bir reklam kimi lazım idi. Bütün bunların fonunda Hindistandan alınan qumbaralar, Fransanın göndərdiyi zirehli transportyorlar barədə məlumat yayılması reklamdan, göstərmədən başqa bir şey sayıla bilərmi?

Çox güman ki, Fransadan göndərilən zirehli texnika da lazımi silah-sursatla təmin edilmədən göndərilib və onlar da elə zirehli maşın olaraq əliyalın kütlənin, etirazçıların qovulmasından başqa bir şeyə yaramır. Elə şəkillərdən də görünür ki, həmin o zirehli texnikanın üzərində bir dənə də olsun atıcı, odlu silah yoxdur və həmin maşınlar da elə raketsiz təyyarələr kimi döyüş zamanı heç nəyə yaramır. O zaman həmin maşınların alınması barədə məlumatı yaymaqda məqsəd göstərmədən, reklamdan başqa nə ola bilər? Bəlkə də Hindistandan gələn qumbaralar da partlayıcısız göndərilib. Yəni işğalçı ölkənin iqtisadi, maddi durumu bunu deməyə əsas verir ki, həmin ölkəyə göndərilən hərbi sursat ancaq yararsız sayılanlar ola bilər. Çünki həmin ölkənin silah almaq üçün vəsaiti, imkanı yoxdur və ödəniş olmadan verilən silahların da nə qədər yararlı olacağı ritorik sualdır və hər kəs də cavabını yaxşı bilir.

PR, reklam və göstərmə ilə Ermənistan tərəfi əzələ nümayiş etdirmək niyyətindədirmi? Maraqlıdır, 20 ədəd zirehli texnika, eləcə də 150 min qumbara almaqla iş bitmiş hesab olunur, yoxsa bunu ermənilər əzələ hesab edirlər? Məgər Ermənistan tərəfi həmin ölkədə çağırışçı əsgərlərin sayından xəbərsizdir? Bəlkə, onların sayının hər il kəskin şəkildə azaldığı barədə də məlumatsızdır? Axı bu məlumatları da özləri yayıblar. Daha dəqiq desək, Milli Müdafiə və Təhlükəsizlik Komitəsinin üzvü Hayk Sarkisyan bu barədə məlumat yayıb. Deməli, məlumatsız ola bilməzlər. Yayılan informasiyadan sonra məlumatsız ola bilməzlər ki, 2010-cu ildə Ermənistan Respublikasında 44 min çağırışlı əsgər olduğu halda, 2019-cu ildə, yəni 9 il sonra bu rəqəm 24 min nəfərə qədər aşağı düşüb. Bir sözlə, 9 ildə düz 44 faiz azlma olub, hansıı bu heç də kiçik rəqəm deyil. Bu faktın fonunda silahlanma barədə hay-küy qoparan və hətta hansı silahdan nə qədər sayda əldə etdiyi barədə aləmə səs salan ancaq Ermənistandan başqa hansısa bir ölkə ola bilərmi?

Paşinyan hakimiyyətinin silah əldə edildiyi barədə hay-küy qoparması bir tərəfdən də daxili auditoriyaya hesablanan addımlardır. Bu addımlar birbaşa təbliğat xarakteri daşıyır. Bir sözlə, erməni baş nazir bununla Ermənistan ictimaiyyətinə göstərmək istəyir ki, silah almaq imkanı, müqavimət göstərmək şansı var. Yəni, məğlubiyyət acısından sonra qınanılan biri kimi özünü doğrultmaq üçün rəqiblərinə nə isə göstərmək fikrindədir. Digər tərəfdən də bunu elə hər kəsə göstərir. Yenə də ritorik bir sual ortaya çıxır. Görəsən, silah əldə edilməsinin, özü də bir neçə ədəd silah ələ keçirməyin nəyi isə dəyişəcəyinə erməni cəmiyyəti, yaxud Nikol özü inanırmı? İnanılası olmayan bir şeyə çətin ki, kimi isə də inandırmaq mümkün olsun. Belə çıxır ki, erməni cəmiyyəti yenə də sadəcə suyu bulandırmaqdan başqa heç nəyə nail olan deyil. Silah-sursat alışı barədə xəbərlərin, məlumatların yayılması ilə regionda yaranan yeni reallığa cüzi də olsa təsir etmək, vəziyyəti istədikləri istiqamətdə dəyişməyin mümkün olmadığını biləbilə bunu etməkdənsə, daha doğru olmazmı ki, qonşu dövlətlərlə sülh şəraitində yaşamağı seçmək məntiqi deyildimi? Onsuz da silah əldə etməklə heç nəyə nail ola bilməyəcəklərini, ölkəmizi öz haqq yolundan döndərə bilməyəcəklərini anladıqları halda, Azərbaycanla sülh bağlamaq doğru addım sayılmırmı? Cəmi 20 ədəd zirehli transportyor, 150 min qumbara ilə Azərbaycanın hərbi potensialı ilə müqaisə belə oluna bilinməyəcək vəziyyətlərinin fərqində ola-ola ölkəmizlə münaqişə etməyin yenə də məğlubiyyətlərinə səbəb olacağını yoxsa bilmirlər? Bəs bunu bilə-bilə silah əldə etdiklərini göstərmək naminə beş-on ədəd hərbi texnika almaq üçün xarici dövlətlərə yalvarmaqdansa Azərbaycanla sülh sazişi bağlayıb normal qonşuluq şəraitində yaşamağı seçmək daha məntiqli, daha doğru sayılmırmı? Bu suallar təkcə bizim tərəfimizdən deyil, bütövlükdə sülh tərəfdarı olan dünya ictimaiyyəti tərəfindən ünvanlanmalı suallardır. Zənnimizcə erməni cəmiyyətinə ünvanlanan ritorik suallar barədə düşünülsə, daha sağlam düşüncə ilə addım atılar, daha doğru və düzgün qərarlar qəbul edilər və bir an belə gecikmədən sülh barədə razılığa gəlinər.

***İnam Hacıyev***

# “YAP cəmiyyətin siyasi avanqardına çevrilib”

“1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etsə də qarşısında duran ciddi problemlərin həlli görünmürdü. Bir-birini əvəz edən iqtidar komandaları problemləri həll etmək əvəzinə onları daha da çoxaldırdılar. Yeni müstəqil bir dövlət quruculuğu, eyni zamanda Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə ağırlaşırdı. Buna görə də mütləq hakimiyyətdə təcrübəli, cəmiyyəti birləşdirə bilən, ağır problemlərin həllinə konstruktiv həll proqramları qoya bilən bir liderin olması vacib idi. Azərbaycanın demokratik düşüncəli insanları belə lider kimi vaxtilə Sovet Azərbaycanına rəhbərlik etmiş, ondan sonra SSR rəhbərlərindəin biri olmuş dünya şöhrətli siyasətçi Heydər Əliyevi görürdülər”. Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib.




Deputat sözlərinə belə davam edib: ”Heydər Əliyev həmin dövrlərdə artıq Naxçıvan MR rəhbəri kimi Naxçıvanın rəsmi Bakının köməyi olmadan ayaq üstə durmasına və ağır problemlərin həllinə nail ola bilirdi. Bu baxımdan insanlar Heydər Əliyevin adı ilə bağlı olan bir siyasi qüvvənin yaranmasına böyük ehtiyac görürdülər. Baxmayaraq ki, ona qədər Azərbaycanda artıq 30-dan çox yeni yaranmış siyasi partiya var idi. Amma onlar daha çox qrup təəssüratı bağışlayırdı. Onlar Azərbaycanın problemlərini həll edə biləcək bir siyasi qüvvə kimi formalaşmamışdılar.

1992-ci ilin oktyabr ayında 91 nəfər tanınmış Azərbaycan ziyalısı Ulu Öndər Heydər Əliyevə müraciət edərək Azərbaycanın çox ağır problemlər yaşadığı və onun böyük siyasətə qayıdışının vacibliyi, onun özünün rəhbərlik edə biləcəyi bir partiyanın yaranması zərurətini bir daha bildirdilər. Heydər Əliyev ziyalıların müraciətinə cavab olaraq doğurdan da Azərbaycanın ağır günlər yaşadığını göstərdi. Həmin problemlərin hamısını bir-bir sadalayaraq onların həlli yolunu açıqladı. Sonra isə bütün Azərbaycan coğrafiyası üzrə bu partiyanın təşkilatları formalaşmağa başladı. Noyabrın 21-də Naxçıvanda YAP-ın təsis qurultayı keçirilərək Azərbaycan siyasi həyatına artıq mütəşəkkil siyasi qüvvə kimi qədəm qoydu. Bu yeganə partiya idi ki, paytaxtda deyil, regionda keçirilirdi. Eyni zamanda, qısa bir zamanda partiyanın sıralarına yüz minlərlə üzv və tərəfdaşlar toplaşdılar. Heç də təsadüfi deyil ki, insanlar YAP-da Azərbaycanın bu gününü və sabahını, demokratik qüvvələri birləşdirərək milli birlik yarada bilən bir qüvvə görürdülər.

Ulu Öndərin 1995-ci il 15 iyunda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı Heydər Əliyev siyasətinin Azərbaycan üçün vacibliyini bir daha göstərdi. Onun rəhbərliyi və ideyaları ilə yaranıb formalaşn YAP hər bir seçkidən qalib partiya kimi ayrıldı. Bu gün 700 mindən çox vətəndaşını birləşdirən YAP cəmiyyətin siyasi avanqardına çevrilib. Özünü hakim partiya kimi deyil, sıradan bir partiya kimi aparan YAP ilk növbədə cəmiyyətdə demokratiyanın dərinləşməsinə, hüquqi demokratik dövlət quruculuğuna hər bir insanın töhfə verməsinə, azərbaycançılıq ideyasının geniş yayılması üçün daima çalışır, Ulu Öndərin adı ilə yaranan partiya indiki sədr olan cənab İlham Əliyevin rəhbərliyi ilə daha böyük uğurlar qazandı. Ulu Öndərin də bildirdiyi kimi, cənab İlham Əliyev YAP-ın dünənin, bugünün və sabahın partiyası olduğunu bir daha təsdiq etdi”.

***Ayşən Vəli***

# ABŞ-ın anti-Azərbaycan mövqeyi qəbuledilməzdir

ABŞ Konqresinin 907-ci düzəlişi ölkəmizə qarşı ədalətsizliyin ifadəsi olmaqla bərabər, həm də özünü demokratik adlandıran bu dövlətin antidemokratikliyindən, təcavüzkarlara dəstəyindən, çirkin məqsədlərindən xəbər verir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri qeyd edib ki, noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında “Dağlıq Qarabağın gələcəyi” mövzusunda keçirilmiş dinləmələr və Azərbaycanın əleyhinə səsləndirilən böhtan xarakterli ifadələr bunu deməyə əsas verir.

“Bu gün Amerika Azərbaycanın inkişafını, beynəlxalq aləmdə artan nüfuzunu və zəfərini qəbul edə bilmir. Halbuki əldə olunan uğurlar beynəlxalq hüququn normalarına, dövlətimizin haqlı mövqeyinə, ədalətli mübarizəsinə əsaslanmış və həyata keçirilmişdir. Amerika Birləşmiş Ştatları BMT Təhlükəsizlik Şurasının üzvü, ATƏT-in Minsk Qrupunun həmsədri kimi Azərbaycan həqiqətlərinə, torpaqlarımızın 30 il düşmən tapdağı altında qalmasına, bir milyon insanın öz ata-baba torpaqlarından zorla qovulmasına, yüz minlərlə insanın öldürülməsinə, şikəst edilməsinə, əsir götürülməsinə, incidilməsinə həmişə biganə olmuş, Təhlükəsizlik Şurasının dörd mühüm qətnaməsinin yerinə yetirilməsinə heç bir təşəbbüs göstərməmişdir. Əksinə, 1992-ci ildə konqres tərəfindən qəbul edilən Azadlığa Dəstək Aktı qanunun 907 bölməsinə edilən düzəlişə əsasən



ABŞ tərəfindən Azərbaycana yardım göstərilməsi qadağan olunmuş, torpaqlarımızı işğal edən Ermənistana isə maliyə yardımı ayrılmışdır. Əlbəttə bu, Azadlığa Dəstək Aktı yox, faşizmə, təcavüzkara dəstək aktı idi və işğala məruz qalan ölkəmizin haqlı mövqeyinin tapdalanması idi.

ABŞ bu vaxta qədər həyata keçirdiyi məkrli məqsədini bu gün də davam etdirir. Suverenliyini bərpa edən, torpaqlarını azğın düşməndən qurtaran, haqqını alan, ədalətsizliyə son qoyan dövlətimizə qarşı yönələn təqiblər, təsirlər, yalan bəyanatlar, dinləmələrlə



**KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ**

Amerikanın rəsmi dairələrinin sülhə, əminamanlığa, təhlükəsizliyə yox, müharibələr törətməyə, xalqları əsarət altına almağa xidmət etdiklərini göstərir. ABŞ Senatının noyabrın 15-də qəbul etdiyi “Ermənistanı müdafiə aktı” da tamamilə anti-Azərbaycan mahiyyəti daşıyır. Ermənistanın Azərbaycandan qorunması və Amerikanın bundan narahatlığı gülünc görünür. Bu sənəd əslində, Ermənistanın silahlandırılmasını nəzərdə tutur. Vaşinqiton erməni təcavüzkarlarını yaşatmaq və silahlandırmaq üçün ciddi cəhdlər göstərir. Bu, Cənubi Qafqazda sülhə təhdid və müharibəyə rəvac verməkdir.

ABŞ və Avropanın bəzi ölkələri, Fransa, Almaniya bilməlirdilər ki, Cənubi Qafqazda onlara yer yoxdur. Ermənistanın əli ilə istədiklərinə nail ola bilməyəcəklər.”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***



# Bu gün sənin günündür, AĞDAM!

**Mətanət Məmmədova**

27 il düşmən tapdağı altında qalan və 2020-ci ilin 27 sentyabrından başlanan yolla azadlığına doğru yolçuluğa çıxan Ağdam bir qərinəyə yaxın qara günlər yaşadı. Gözəl hüsnündən əsər-əlamət qalmadı Ağdamın. Vəhşi düşmən bu ağ saraylı, ağ binalı şəhəri yerlə yeksan etdi. Dağıdıldı, yandırıldı, köksü qara tüstü burulğanına büründü. Ağ şəhər qara şəhərə çevrildi. Həm də qara günlü şəhərə...

27 il idi ki, adından “ağ” sözünü çıxarıb Qarabağın qara bəxti, qara taleyi adlandırmışdıq Ağdamı. Çünki ağ günündən, ağappaq şölə saçan növrağından əsər-əlamət qalmamışdı bu yurdun. Ona yad əllər uzanmışdı. Bədxah addımlar köksündə yaralar açmışdı. Tanış olmayan nəfəslər bu yerlərin ağ gününə qara tüstü püskürmüşdü.

İllərdi yanırdı çinarlıqları. Sökülürdü abidələri, mədəniyyət ocaqları. Dağıdılırdı zəhmət əllərinin ucaltdığı evlər - bir ailənin ümidi sökülürdü. Evindən-eşiyindən köçmək məcburiyyətində qalanların yuxularının tez-tez qonağı olurdu Ağdam. Bu yuxular dünyada məşhur olan Qarabağ atlarının məskəni olan Ağdamın ağ atlı oğullarından, ağ duvaqlı qızlarından “danışırdı”. 27 il əvvəl Qarabağın qoynundakı ən çox şəhid verən bu bəyaz şəhərin qara günlərini nağıl edirdi o yuxular. Lakin nə bu yuxular, nə də real həyat belə davam edəcəkdi. Çünki xalqın belə bir deyimi var: Qara günün ömrü az olar.

Qara gününün ömrü 27 il olsa da, 27 sentyabrdan başlanan Vətən müharibəsi Ağdamın bu ömrünün sonu oldu. Müzəffər ordumuzun sürətlə irəliyə doğru irəliləməsi, o yuxulardakı ağ atlı oğulların düşmənin qara kabusuna çevrilməsi son qoydu Ağdamın qara günlərinə. Ali Baş Komandanımızın da söylədiyi kimi: “Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün oldu. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş və böyük vəsait xərclənmiş istehkamlar. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etmişdilər. Bizim gücümüzü düzgün hesablaya bilməmişdilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bizi o Qələbəyə aparan həm gücümüz, texniki təchizatımız, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi”.

27 sentyabrdan başlanan hərbi yol 10 noyabrda siyasi yolla birləşərək Ağdamın qələbəsini yaxınlaşdırdı. Tarix yenə 27 il əvvələ geri döndü. Lakin bu dönüş azərbaycanlıların başına açılan o müsibətli günləri qələbə sevinci ilə əvəzlədi. Bu dəfə əzilən başqasının torpaqlarında ağ gün axtararkən qara günlərin sahibinə çevrilənlər oldu. Tarix öz siyasi lideri və səhifələrinə minilliklərin hünər səhifəsini yazan azəri övladlarının şücaəti ilə Ağdamı ağdamlılara qaytardı. Həmin gün Ağdamın “çöhrəsini” gülümsəyən gördük. Sevinc göz yaşları axıtdıq. Qəlbimiz qürur hissi ilə doldu...

Ağdamda Azərbaycan bayrağı ucaldıldı. Ağdam bu doğma nəfəsləri, tanış əllərin hərarətini duyduqca gülümsəyirdi. 27 il çöhrəsinə qara rəng çökən Ağdam gülümsəyirdi. Dağıdılmış, viran edilmiş abidələri, tarixi yerləri, incəsənət, mədəniyyət nümunələri, bərəkətli, altı da, üstü də zəngin torpaqları ilə birlikdə gülümsəyirdi. Çünki o əllər bu yurd yerinə yeni həyat vermək üçün gəlmişdi. Minlərlə evinin daşı daş üstündə qalmayan bir yurdu yurddaşlarına vermək, buraya yeni növraq bəxş etmək üçün gəlmişdi. Bu səbəbdən də Ağdam gülümsəyirdi. Qələbəsini, azadlığını bayram edirdi. Bütün işğaldan azad olunmuş torpaqlarımız kimi, Ağdamın da üzünə gülümsəmək necə də yaraşır...

Budur, azadlığından 3 il ötür Ağdamın. O, yenidən qurulur. Bağrına çəkilən min bir dağa dağ vüqarlı oğullarımız məlhəm oldu. Bu gün isə dövlətimiz Ağdamı yenidən dirçəldir. Dirçəldir ki, sakinləri öz ata-baba torpaqlarına-doğma Ağdamlarına qayıtsınlar, ona qara günlərini unutdursunlar. O gün çox yaxındadır.

Günün mübarək, Ağdam. 20 noyabr-sənin azadlığın günü xalqımızın qürur tarixidir.

# “Heydər Əliyevin dövlətçilik fəlsəfəsində Yeni Azərbaycan Partiyasının yeri və rolu”



## Pirallahı rayonunda YAP-ın 31 illiyi ilə bağlı dəyirmi masa keçirilib



Dünən Pirallahı rayon YAP Pirallahı rayon təşkilatı və İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaranmasının 31 illiyinə həsr olunmuş “Heydər Əliyevin dövlətçilik fəlsəfəsində Yeni Azərbaycan Partiyasının yeri və rolu” başlıqlı dəyirmi masa keçirilib. SİA xəbər verir ki, RİH başçısı Vasif İmanovun, YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasovun, SƏS Media Qrupunun təsisçisi və rəhbəri Bəhruz Quliyevin, RİH başçısı Aparatının məsul əməkdaşlarının və rayon ərazisində fəaliyyət göstərən səhiyyə, ümumtəhsil, mədəniyyət müəssisələrinin, Qeyri-Hökümət Təşkilatlarının nümayəndələrinin və fəal gənclərin iştirak etdiyi tədbir Ümummilli lider Heydər Əliyevin büstü qarşısına gülqoyma mərasimi ilə öz işinə başlayıb. Daha sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib, Ümummilli lider Heydər Əliyevin və Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Dəyirmi masa YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov tərəfindən açıq elan edildi. Sədr Azərbaycan dövlətçiliyinin inkişafında Yeni Azərbaycan Partiyasının xidmətlərindən bəhs edərək vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev Öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirib və xalqımızın taleyində silinməz izlər qoyub. Bu silinməz izlərdən biri də Yeni Azərbaycan Partiyasıdır. Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası bizim qarşımızda xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, ictimai-siyasi həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında yaxından iştirak etmək kimi önəmli vəzifələr qoyur. Natiq vurğulayıb ki, Yeni Azərbaycan Partiyası öz potensialı, real addımları və bacarıqlı kadrları ilə xalqa xidmət edir. Bu baxımdan YAP Pirallahı rayon təşkilatıda qarşıda duran məsul vəzifələrin həlli istiqamətində öz işini yeniləşən Azərbaycanın müasir tələbləri kontekstində qurmalı, ölkədəki islahatlar prosesinə hərtərəfli dəstək verməklə yanaşı, daxili pozitiv transformasiyalara da hər an hazır olmalıdır. 44 günlük Vətən müharibəsi bir daha təsdiq etdi ki, öz ideoloji prinsiplərini cəmiyyətimizin birliyi, bütövlüyü və həmrəyliyi üzərində quran Yeni Azərbaycan Partiyası Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında bu mühüm tarixi missiyanın öhdəsindən uğurla gəlmişdir.

Daha sonra çıxış edən SƏS Media Qrupunun təsisçisi və rəhbəri Bəhruz Quliyev vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının yaranması ilə respublikamızın ictimai-siyasi həyatında yeni tarixin əsası qoyulub. Ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan partiya keçdiyi 31 il ərzində özünü bütün mənalarda təsdiq edərək, tarixin yeni çalarlarını özündə birləşdirməyi bacardı.

B.Quliyev qeyd edib ki, Ümummilli liderimizin layiqli siyasi varisi, möhtərəm Prezidentimiz cənab İlham Əliyev YAP-a rəhbərliyi dövründə əzmkarlıq və yaradıcılıq nümayiş etdirilərək partiyanın siyasi gücü əhəmiyyətli dərəcədə artırılıb və ölkənin siyasi mühitinin hakim təşkilatına çevrilib.

Növbəti olaraq Partiyanın qocaman üzvlərindən Duman Zeynalov və gənc fəallardan Nərmin Əliyeva çıxış etdilər. D.Zeynalov bildirdi ki, Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqına sevgi, dövlətinə sədaqətlə xidmət edib, ölkəsinin bütün ağır vaxtlarında xalqı ilə çiyin-çiyinə olmuşdur. Bu gün xoşbəxtik ki, Ulu öndərin arzuladığı Azərbaycanda yaşayıb, yaradırıq, çalışırıq. Xoşbəxtik ki, onun ideyaları bu gün də yaşayır. N.Əliyeva isə çıxışında partiyanın gənclərin həyatındakı roluna diqqət çəkdi. Qeyd etdi ki, Yeni Azərbaycan Partiyasının hər bir gənc fəal üzvü yolunun buradan keçməsindən böyük qürur hissi duyur və üzərində böyük bir məsuliyyətin olduğunu dərk edir.

Yekun olaraq çıxış edən RİH başçısı Vasif İmanov Yeni Azərbaycan Partiyasının aparıcı siyasi qüvvə kimi fəaliyyət göstərdiyi 31 ildə bütün qüvvə və bacarığını xalqa xidmətə yönəldərək əhəmiyyətli uğurlara imza atdığını qeyd etdi. Vurğulandı ki, Partiyanın banisi Ümummilli Lider Heydər Əliyevin müstəqil, demokratik, hüquqi dövlət quruculuğu yolunda gərgin fəaliyyəti Azərbaycanın bu gününü və gələcək taleyini müəyyən edib. O da qeyd edildi ki, bu gün Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş, güclü sənaye və iqtisadi resursları malik, dünya enerji bazarında söz sahibinə çevrilmiş, beynəlxalq siyasi arenada öz imzası olan, dünya ölkələrinin hesablaşmalı olduğu bir ölkəyə çevrilib. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb, ölkəmizin beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirib. Nitqinin yekununda RİH başçısı Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın zəngin fəaliyyətini xatırladaraq onun partiyanın gücləndirilməsində, inkişafında xüsusilə, gənclərin və qadınların partiyaya üz tutmasında böyük rolu olduğunu qeyd etdi. Mehriban Əliyevanın gördüyü işlər vətəndaşlara dövlət diqqəti və qayğısının gücləndirilməsi, idarəetmədə çevikliyin və funksionallığın artırılması, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsi baxımından əlamətdardır.

Sonda partiyanın ictimai-siyasi həyatında fəal iştirakına görə SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının Fəxri Fərmanı ilə təltif edilib və Yeni Azərbaycan Partiyasının yeni qəbul edilmiş himni iştirakçıların diqqətinə çatdırılıb.

# BMT Qoşulmama Hərəkatının konfransına görə Azərbaycana təşəkkür edib



“Qoşulmama Hərəkatının konfransı vacibdir. Mən bu tədbirin təsisçilərinə, Azərbaycana və Uqandaya BMT adından təşəkkür edirəm”. SİA xəbər verir ki, bunu BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva Qoşulmama Hərəkatının Qadın Hüquqlarının İnkişafı və Qadınların Səlahiyyətləndirilməsi üzrə Konfransında çıxışı zamanı deyib. Xanım Andreyeva bildirib ki, BMT-nin dayanıqlı inkişaf məqsədləri qadınların və qızların təmsilçiliyini, gender məsələlərini də təşviq edir. ”Bizim indi münaqişələrlə, böhranlarla üzləşdiyimiz bir zamanda dialoqa, əməkdaşlığa ehtiyacımız var”.

Mərakeşin həmrəylik, sosial inteqrasiya və ailə naziri Hayar Avatif çıxışında Azərbaycan hökumətinə bu konfransa görə təşəkkür edib. O deyib ki, bu konfrans hər bir ölkə üçün vacib olan mövzularda fikir mübadiləsi üçün vacib bir fürsət yaradıb.

”Ölkəmizdə qadın uçaq və ailə məsələləri ilə bağlı məsələlər öz həllini tapıb. Qadınlara qarşı zorakılığın aradan qaldırılması üçün vacib addımlar atılıb. Ölkəmizin rəhbəri deyib ki, Mərakeşin inkişafında qadınlar böyük pay sahibi olmalıdır, kişilərlə çiyin-çiyinə çalışmalıdır. Qadınlar və kişilər bütün hüquqlardan bərabər yararlanmalıdır. 2023-cü ilin sonlarına doğru biz görürük ölkəmizdə qadınların problemləri həll olunub, bu istiqamətdə vacib praktiki addımlar atılıb. 18 milyona yaxın ailə bu fürsətdən faydalanıb”.

Mərakeş Krallığı beynəlxalq çərçivədə qəbul olunmuş gender bərabərliyi ilə bağlı bütün sənədləri, təşəbbüsləri dəstəkləyir. Nepalın qadın, uşaq və gənclər naziri Surendra Raç Açarya çıxışında ölkəsinin gender bərabərliyi, qadınlara qarşı zorakılığa mübarizə istiqamətində qanunvericilikdə və praktiki sahədə atdığı addımlar barədə konfrans iştirakçılarını məlumatlandırıb. Mavritaniyanın gender bərabərliyi və ailə rifahı naziri Kalpana Devi Koonjo Şahçıxışında deyib ki, qadın zorakılığı ilə mübarizə onun ölkəsinin əsas milli prioritetlərindən biridir.

”Ölkəmiz qadınların yüksək siyasi idarəçilik postlarında çalışmasını təşviq edir. Parlament üzvlərinin 17 faizi qadınlarıdır, şirkətlərdə idarəetmə şurasının ən azı 25 faizinin qadınlar olması öhdəliyi var. Qadınların sosial iqtisadi və siyasi həyatda fəal iştirakı üçün mexanizmlər hazırlanıb və bu davam edir”.

Nikaraquanın qadınlar naziri Cessika Yaoska Padilla Levia çıxışında deyib ki, onun ölkəsində nazirlər kabinetində 16 nazirdən 9-u qadındır. “Məhkəmə sistemində çalışanların 59 faizi, parlament üzvlərinin 57 faizi qadınlardır”. Nikaraqualı nazir vurğulayıb ki, onun ölkəsi gender bərabərliyi və qadınların təmsilçiliyi üzrə yüksək göstəricilər əldə etmiş ölkələr sırasındadır.

# “Fransa bu proseslərlə heç nəyə nail ola bilməyəcək”




“Cənubi Qafqazda sülh münasibətlərinin tənzimlənməsi və əldə olunmuş sülhün davamlılığının təmin olunması istiqamətində Azərbaycan mühüm işlər həyata keçirir, iradə göstərir. Çox təəssüf ki, qarşı tərəf Ermənistan bir sıra imkanlardan xüsusilə də havadarlarının beynəlxalq hüquqa zidd dəstəyi nəticəsində üzərinə götürdüyü öhdəliklərdən boyun qaçırmağa çalışır. Burada mənfi mənada başlıca rolu da təbii ki, Fransa həyata keçirir. Sərgilədiyi anti-Azərbaycan mövqeyi və ermənipərəst yanaşma Fransanın bölgəyə daxil olmaq planları ilə bağlıdır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Anar Əliyev deyib.

Politoloq bildirib ki, 10 noyabr bəyanatı ilə Rusiya, Türkiyə və Azərbaycanın ortaya qoyduğu qətiyyətli mövqe ilə ATƏT Minsk qrupu timsalında Fransa və ABŞ proseslərin tənzimlənməsindən kənarda qalmış oldu: “Ötən üç il müddət ərzində müxtəlif plaftormalar çərçivəsində ABŞ və Fransanın Cənubi Qafqazda münasibətlərin tənzimlənməsində iştirakına cəhdlər edilsə də həm ciddi nəticələr əldə olunmadı, həm də Fransanın proseslərdə iştirakına Azərbaycan imkan vermədi.

Xüsusilə də Avropa siyasi birliyi ilə keçirilən toplantılardan Azərbaycanın imtina etməsi Fransanın bundan sonra heç bir halda Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsində tərəf kimi çıxış etməsinə imkan verməyəcək. Bunu Fransa da artıq çox gözəl dərk edir.

Fransanın Ermənistanı silahlandırmağa çalışması və Ermənistan ordusunun yenidən təşkil edilməsi prosesinə start verilməsi ilə bağlı bəyanat daha çox təzyiq xarakterlidir. Çünki Fransa anlayır ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan ordusu tərəfindən darmadağın edilən Ermənistan ordusunun texnikasını tam təmin etmək nə Ermənistan dövlət büdcəsinin gücündə, nə də Ermənistan hərbi sənaye kompleksinin imkanları daxilindədir. Fransanın Ermənistana dəstəyi isə Ermənistan cəmiyyətində revanşist düşüncələrin oyanmasına səbəb olur.

Hazırki şərtlər daxilində Ermənistan ordusunun Azərbaycana müqavimət və hücum göstərə biləcək səviyyədə olması mümkün deyil, reallığa uymur. Belə olan halda erməni cəmiyyətində yenidən formalaşdırılan revanşist düşüncələr Ermənistan üçün növbəti bəlanın xəbərdarlığıdır. Fransa isə sadəcə öz istəklərini reallaşdırmaq üçün çalışır. Lakin Fransa da bu proseslərlə heç nəyə nail ola bilməyəcək”.

**Səbinə Hüseynli**



Elçin Bayramlı

# Maaş artımları inflyasiyanı kompensasiya edəcəkmi?

***Son dövrlərdə bir çox məhsulların və xidmətlərin qiymətinin davamlı bahalaşması əməkhaqqı və pensiyaların artırılmasını şərtləndirir. 2024-cü ilin dövlət büdcəsi layihəsinə əsasən, gələn ilin yanvarından maaş və pensiyalarda artımların olacağı gözlənilir.***

Maaş və pensiyalarda 15 faiz civarında artım gözlənilir. Real inflyasiya həcmi bundan az deyil. Əslində bu artım yox, indeksasiyasıdır, lakin qiymət artımları davam etsə indeksasiya belə təmin olunmuş olmaz.

İndiyədək adambaşına yaşayış minimumu 246 manat idi, gələn il üçün yaşayış minimumu isə 270 manat nəzərdə tutulur. Artım cüzidir və bu 10 faizlik artım inflyasiyanı kompensasiya etmir. Əksər ailələrin adambaşına gəliri bu məbləğdən də aşağıdır. Faktiki yaşayış minimumu ən azı 350 manat civarındadır. Bahalaşmanın davam etməsi ilə bağlı minimum istehlak səbətinin dəyəri də durmadan artır. Bu səbəbdən həm minimum əməkhaqqının və minimum pensiyaların, həm də yaşayış minimumunun artırılması aztəminatlı ailələrin sosial müdafiəsi üçün çox vacibdir.

Ölkədə maaş və pensiyaların artırılması əhalinin sosial vəziyyətinin yüksəlməsini təmin etməlidir. Lakin ənənəvi olaraq bəzi işbazlar tərəfindən bu artımlardan sonra əksər məhsul və xidmətlərin qiymətlərinin süni bahalaşdırılması tendensiyası müşahidə olunur ki, bu da son nəticədə inflyasiyanı artırır, edilən artımları səmərəsiz hala gətirir. Ölkə prezidenti bir neçə dəfə belə hallara qarşı sərt reaksiya verib və süni bahalaşma halları aradan qaldırılıb.

Büdcədən maliyyələşənlərin maaş və pensiyaları qaldırılandan sonra baş verən bahalaşma meyilləri təkcə onlara deyil, özəl və ictimai sektorda çalışan və maaşları artmayan vətəndaşlara da zərər vurur. Çünki maaşı artımları dövlət büdcəsindən əməkhaqqı alanlara aid olur, özəl şirkətlərdə işləyənlərin maaşları artmır. Ona görə də, minimum əməkhaqqının 350 manatdan 500 manata qaldırılması vacibdir.

Süni bahalaşmanın qarşısını almaq üçün inzibati metodların tətbiqi də mümkündür, lakin burada başqa faktorlar da var ki, ilk növbədə onlara toxunmalıyıq. Bazarda süni proseslərin qarşısını almaq üçün rəqabət mühiti təmin olunmalıdır.

Məhsulunu bazara çıxaran şəxs və ya şirkət bunun üçün verdiyi rüşvətləri məhsulun üzərinə əlavə edir və qiymətlər süni şəkildə artır. Qiymətlər bazar stabilləşdirməlidir, tələb-təklif münasibətləri əsas rol oynamalıdır. Ona görə də, dövlət başçısının dediyi kimi, inhisarçılıq, korrupsiya halları aradan qaldırılmalıdır. İnzibati təzyiq vasitələri müvəqqətidir, amma bunun da təsiri ola bilər. İnzibati təzyiq ona yönəlməlidir ki, sahibkarların, məshul istehsalçılarının əlavə xərcləri yaranmasın. Əks halda, qiymətlər süni şəkildə artacaq.

Qiymət və qiymətləndirmə məsələsini tamamilə bazarın öhdəsinə buraxmaq da düzgün deyil. Çünki burada təkcə iqtisadi problem deyil, ictimai, siyasi, sosial və mənəvi məsələlər də birləşir. Belə ki, bəzi qiymətlərin dövlət tərəfindən tənzimlənməsi həmin məhsulların və xidmətlərin ucuzlaşması ilə nəticələnə bilər ki, bu da son nəticədə əhalinin həyat səviyyəsinə müsbət təsir edər.

Dünyanın ən yüksək inkişaf etmiş ölkələrində belə, qiymətlərin müəyyən sərbəstliyi və sahibkarın qiymət sahəsindəki sərbəstliyi ilə yanaşı, dövlətin tənzimləyici siyasəti də mühüm yer tutur. Məsələn, hətta ABŞ kimi klassik bazar iqtisadiyyatına malik olan ölkədə gündəlik tələbat məhsullarından tutmuş strateji məhsullara qədər 900-ə yaxın adda məhsul və xidmətin qiyməti dövlətin nəzarətindədir.

Bu o deməkdir ki, həmin qiymətlər müəyyən dəhliz daxilində tənzimlənir, yəni onun mümkün minimum və maksimum qiymətləri müəyyən edilir və qiymətlərin bu arada olması təmin edilir.

Buna baxmayaraq, prosesi təkcə inzibati metodlarla tənzimləmək mümkün olmayacaq. Bazarda daha çox bolluq yaratmaq üçün istehsalı stimullaşdırmaq, bazara çıxışları asanlaşdırmaq lazımdır. Fermerlərin məhsul istehsalı ilə daha fəal və səmərəli məşğul olması üçün dövlət dəstəyi gücləndirilməlidir.

Bütün bunları nəzərə alaraq qeyd etməliyik ki, hökumət elə bir optimal mexanizm tapmalıdır ki, həm bazar rəqabəti qaydaları pozulmasın, həm süni bahalaşmanın qarşısı alınsın ki, əməkhaqqı və pensiya artımları inflyasiyanın yeminə çevrilməsin. Bu, daxili bazarı qorumaq, əhalinin sosial müdafiəsini gücləndirmək, iqtisadi artımı təmin etmək həyati dərəcədə vacibdir.

# Ermənistan Azərbaycana kimləri təhvil verəcək?

***Qarabağda aparılmış uğurlu lokal antiterror tədbirlərindən sonra ərazidən qaçmağa cəhd edərkən yaxalanmış erməni separatçılarının cinayətkar rəhbərləri, eləcə də əlləri azərbaycanlıların qanına bulaşmış digər daşnak-faşist çete üzvləri artıq Azərbaycan qanunları qarşısında cavab verməkdədirlər.***




*Edqar Kazaryan: "Bütün keçmiş hərbi və siyasi liderlərimiz Bakıya göndəriləcək"*

**Etiraflar...**

Lakin o da məlumdur ki, bu gün Ermənistanda olan və Azərbaycana qarşı çoxsaylı hərbi-siyasi cinayətlər törədən şəxslər də var ki, onları da yaxın zamanlarda bənzər aqibət gözləyir. Hətta revanşçı hisslərində qalan və Paşinyan rejiminə müxalif olan siyasi fiqurlar da etiraf etmək məcburiyyətində qalıblar ki, belə getsə sabiq prezidentlər - Robert Koçaryan, Serj Sarqsyan, həmçinin digər şəxslər də bir gün gözlərini Azərbaycan həbsxanasında açacaqlar. Misal üçün, hazırda Serj Sarqsyanın yaxın tərəfdarlarından hesab edilən politoloq və ictimai-siyasi fərd - Eduard Kazaryan deyib: ”Hazır olun, Ermənistanın bütün keçmiş prezidentləri, müdafiə nazirləri, Silahlı Qüvvələrin Baş Qərargah rəisləri Azərbaycana təhvil veriləcək”.



**“Levon Ter-Petrosyandan Serj Sarqsyana kimi hamısı məsuliyyət daşıyır”**

Maraqlıdır ki, Kazaryan bir müddət əvvəl baş nazir Nikol Paşinyanın Fransa səfərinin bəzi detallarına diqqət çəkib. Erməni mediasına müsahibə verən politoloq ”Paşinyanın Parisdə kiminlə görüşdüyünü bilirsiniz”, sualını verib və özü də həmin sualına aydınlıq gətirib: ”Haaqa Beynəlxalq Cinayət Məhkəməsinin prokuroru ilə! Mən bilmək istəyirəm ki, baş nazir onunla nəyi müzakirə edib? Düşünürəm ki, Roma statutunu ratifikasiya etməyimiz sadəcə başlanğıcdır. Hazır olun, Ermənistanın bütün keçmiş prezidentləri, müdafiə nazirləri, Silahlı Qüvvələrin baş qərargah rəisləri hərbi cinayətkar kimi Azərbaycana təhvil veriləcəklər. Bütün keçmiş hərbi və siyasi liderlərimiz Bakıya göndəriləcək”. Roma statutunda ”Ermənistan vətəndaşları tərəfindən törədilən müharibə cinayətləri” bölməsi var. Yəni, Levon Ter-Petrosyandan Serj Sarqsyana kimi hamısı məsuliyyət daşıyır”.



Lakin bununla yanaşı, Eduard Kazaryan baş nazir Nikol Paşinyanın 44 günlük müharibədən əvvəl reallaşdırdığı bədnam Şuşa və Xankəndi səfərlərini də xatırladıb, üstəlik iddia edib ki, Paşinyanın özü də nə zamansa mühakimə olunacaq.

**“Siyahının sonunda Paşinyan da var...”**

“Paşinyan elə bilir ki, bununla məsuliyyətdən qaça biləcək. Lakin bir şeyi gözdən qaçırır, siyahının sonunda o var”, - deyən erməni politoloqu daxilindəki revanşçı və qonşu ərazilərinə göz dikmək şakərini də gizlətməyərək, Paşinyanın 1991-ci il Alma-Ata Bəyannaməsinə görə Qarabağın Azərbaycan torpağı olması bəyanatını da xatırladıb: ”Bəs o zaman 2018-ci ildə baş nazir seçildikdən sonra mayın 8-də Şuşaya səfər edərkən pasportunda Azərbaycan möhürü vardımı? Gedib ”artsax müdafiə ordusu” ilə iclas keçirdi. Azərbaycan bu qüvvələri terrorçu təşkilat kimi qəbul edir. Yəni, hazırda həbsdə olan Levon Mnatsakanyan bu təşkilatın komandanı olub. Paşinyan Mnatsakanyanla görüşüb ordunun düşmənə (Azərbaycanı nəzərdə tutur - A.T.) zərbə endirməyə hazır olduğunu demişdi. Yəni, Roma statutuna, əsasən, o özü də hərbi cinayətkar kimi mühakimə olunacaq”.



Beləliklə, onsuz da kəskin deformasiyaya uğramış Ermənistan siyasətində daxili çəkişmələr, iddialar da səngimək bilmir və vəziyyət o həddə qədər inkişaf edib ki, tərəflər bir-birlərinin Azərbaycana təhvil veriləcəklərini də istisna etmirlər. Əslində isə, bu, erməni tərəfinin öz daxili çəkişmələridir, amma danılmaz fakt budur ki, hər necə olursa-olsun, yerdə qalan hərbi və siyasi cinayətkarlar gec-tez Azərbaycan qarşısında mütləq cavab verəcəklər. Necə deyərlər, rəsmi Bakı sözlərini havaya demir, əməli şəkildə icra edir. Hər halda, İrəvanda oturub bir-birlərini ittiham edənlər bu reallığı qulaqlarından sırğa edib-asmalıdırlar...

**Afət Tahirqızı**

ŞƏRH-AKTUAL

# BÖYÜK QAYIDIŞ: Azərbaycan quruculuq meydanında





**_Məcburi köçkün adı altında 30 ilə yaxın yaşamış vətəndaşlarımız artıq bu adın ağrı-acısı altında yaşamırlar. 44 günlük Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad olunması ilə Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. Bu gün işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir._**

Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2,2 milyard ABŞ dolları məbləğində vəsait ayrılmışdır. Təbii ki, Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycan Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələri həyata keçirib və bu davamlıdır. Eləcə də nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. Qısa bir zamanda Böyük Qayıdışın ilk karvanı olan Ağalıya edilən köç sonralar işğaldan azad olunan digər ərazilərə də yol aldı. Bu Azərbaycanın gücünün göstəricisidir.




### STRATEJİ İNKİŞAF MƏRHƏLƏSİ

Hərb meydanında sözünü deyən Azərbaycan bu gün quruculuq meydanında da imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Bildiyimiz kimi, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir. Bu və ya digər layihələr çox böyük perspektivə malikdir. Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olub. Uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini, insan kapitalının davamlı inkişafını təmin edir. Bildiyimiz kimi, qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib. Bu prioritetlərə söykənən dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi. Bu Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb.

### FÜZULİDƏ 380 AİLƏNİN DAİMİ MƏSKUNLAŞMASI TƏMİN OLUNACAQ

Bildiyimiz kimi, birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edildi. Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan ərazilərə köçlər davam edir. Böyük Qaydışımız əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Böyük Qayıdış üzrə I Dövlət Proqramı çərçivəsində Füzulidə tikilən yaşayış məhəllələrinə növbəti mərhələdə 122 ailə (461 nəfər) köçürüləcək. Bununla da şəhərdə 380 ailənin (1389 nəfər) daimi məskunlaşması təmin olunacaq. Hazırda Azərbaycan dövlətinin qarşısında işğaldan azad edilmiş ərazilərin bərpası, davamlı inkişafı və məcburi köçkünlərin doğma yurda qayıdışının təmin edilməsi kimi şərəfli vəzifə durur. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Füzulidə məcburi köçkünlərin rahat və təhlükəsiz yaşayışının təmin edilməsi üçün zəruri infrastruktur yaradılıb. Məcburi köçkün ailələrin nümayəndələri püşkatma vasitəsilə onlara verilən evlərin dəqiq ünvanını müəyyənləşdirirlər.

Laçın da abadlıq-quruculuq işləri davamlı olaraq həyata keçirilir. Yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı ardıcıl olaraq davam edir. Bildiyimiz kimi, bir neçə gün əvvəl - noyabrın 14-də növbəti köç karvanı ilə Laçına çatan ailələrə evlərinin açarları təqdim olundu. Laçın şəhəri bu dəfə daha 10 ailəyə qucaq açmış oldu. 40 nəfər laçınlının yurd həsrəti bitdi. 31 ildən sonra yenidən Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə öz doğma yurduna qovuşdu. Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

### ZABUX KƏNDİ NÖVBƏTİ 25 AİLƏNİ QARŞILADI

Laçının Zabux kəndi də bu sevinci yaşadı. İlk mərhələdə 88 nəfərdən ibarət 20 ailə Zabuxa köç etdi. Bakıdan, Lökbatandan Zabuxa yol alan karvan məcburi köçkünləri neçə ilin həsrətindən sonra el-obası ilə görüşdürdü. Ailə tərkibinə uyğun olaraq, onlardan 4-ü ikiotaqlı, 4-ü üçotaqlı, 8-i dördotaqlı, 4-ü beşotaqlı mənzillə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar. Qeyd edək ki, ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi inşa edilib. Əlbəttə ki, Laçın Azərbaycan dövlətinin və xalqının quruculuq əzminin daha bir nümunəsidir. Onu da qeyd edək ki, noyabrın 16-da Laçın rayonunun Zabux kəndinə yola düşən növbəti köç karvanı da ünvanına çatdı. Laçının Zabux kəndi həmin gün 25 ailəyə qucaq açdı və daha 94 nəferin yurd həsrəti bitmiş oldu.

Noyabrın 18-də isə Zabux kəndinə növbəti köç karvanı yola salınıb. Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı noyabrın 18-də Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Zabux kəndinə daha 25 ailə - 103 nəfər köçürüldü. İndiyədək Zabux kəndində 71 ailənin, yəni 291 nəfərin daimi məskunlaşması təmin edilib.

Noyabrın 20-də isə Zabux kəndi növbəti 25 ailəni qarşıladı. Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bununla da indiyədək Zabux kəndində 96 ailənin, yəni, 382 nəfərin daimi məskunlaşması təmin edilib.

### İQTİSADİ GÜC VƏ DİNAMİK İNKİŞAF

31 ildən sonra yenidən doğma kəndinə qədəm qoyan ailələr həsrətini çəkdikləri kəndin gözəl mənzərəsi ilə tanış olublar.Vətən müharibəsində qazandığımız Zəfərdən üç il zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar.Bu gün işğaldan azad olunan ərazilərimiz abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib.

Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini sürətləndirir. Bütün bunlar bir daha onu göstərir ki, dövlətimiz güclüdür və siyasi iradənin gücü bütün çətinliklərə müvəffəq olur.

***Zümrüd BAYRAMOVA***

*Təsdiq olunmuş faktlar ondan ibarətdir ki, Azərbaycanda fəaliyyət göstərən dağıdıcı müxalif partiyalar və onlara rəhbərlik edənlər bu və digər formada xarici fondlara bağlıdırlar.*

# "Xarici agentlər haqqında qanun" qəbul edilsə, Əli Kərimli həbs olunacaq

Məhz bu bağlılıq nəticə etibarı ilə AXCP, Müsavat, Real, "Milli Şura" kimi partiyaların və qurumların Azərbaycanın dövlət maraqlarına deyil, xarici dairələrin mənafeyindən çıxış etməyə məcbur edir. Söz yox ki, bu cür işlər mexanizm rolunda çıxış edilməsi arzuolunan hal hesab edilməsə də müxaliflər bunun fərqində deyil. Onlar üçün başlıca hədəf və məqsəd maddi imkanlarını artırmaq və siyasət meydanında ömürlərini bir qədər də uzatmaqdır. Əgər belə olmasa idi AXCP sədri Əli Kərimli, "Milli Şura" nın rəhbəri Cəmil Həsənli, Real sədri İlqar Məmmədov, Milli Şuranın üzvləri Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərləri vicdanlarının səsinə qulaq asıb, Qarabağ zəfərinin sevincini yaşayan xalqla eyni mövqedən çıxış edərdilər.

### Dağıdıcı müxalifət yaradılan şəraitdən sui-istifadə edir

Görünən ondan ibarətdir ki, dağıdıcı müxalif məxluqlar torpaqlarımızın 30 illik erməni işğalına son qoyulmasından pərişan olublar, qəmə-qüssəyə qərq olublar. Mətbuata verdikləri açıqlamalarında , sosial şəbəkələrdə paylaşdıqları statuslarında Qarabağın işğaldan azad edilməsinin "yarımçıq qələbə" olduğunu iddia edib, bu yöndə cəfəng, erməni lobbisinin maraqlarına xidmət edən fikirlər qeyd edirlər. Hətta Mozambikdə, Fransada, ABŞ-da, Şimali Koreyada baş verən əcayib-qərayib olaylara münasibət bildirən, bəzi məqamlara xoş hislərlə tərifləri yağdıran dağıdıcı müxalif məxluqlar noyabrın 8-də Xankəndində keçirilən zəfər paradı ilə bağlı bir kəlmədə olsun fikir bildirmədi. Danışmadılar, dinmədilər, sanki paradın keçirilməsindən, xalqın coşqu ilə meydanlara çıxıb qürurlu anları şadyanalıqla qeyd etməsindən xəbərsizdirlər. Yəni qulaqları kar, gözləri kordur. Belə müxalifət şübhəsi ki, satqın və xəyanət yolu tutan müxalifətdir. Hansısa Avropa dövlətin belə hallar yaşasa idi, söz yox ki, həmin müxalif partiyaların dövlət qeydiyyatları ləğv edilər, rəhbərliyi isə həbsə atılardı. Nə edək ki, Azərbaycan dövləti humanist və xeyirxah missiya həyata keçirən dövlətdir. Qanunlarımız pərdə arxası xarici



dairələrə agentlik edən dağıdıcı müxalif partiyalara qarşı hüquqi tədbirlər görməyə imkan vermir. Lakin hesab edirəm ki, vaxt çatıb, artıq xaricə agentlik edənlərə qarşı qanunvericiliyin tələbləri çərçivəsində hüquqi tədbirlərin görülməsinin zamanıdır. Nəzərə almaq lazımdır ki, bir sıra Avropa ölkələrində və ABŞ-da "xarici agentlər haqqında qanun" mövcuddur.



### Azərbaycan "xarici agentlər haqqında qanun"u qəbul etsə, dağıdıcı müxalifətin meydanı daralar

Oxşar qanun ABŞ-dan sonra 2012-ci ildə Rusiyada qəbul edilib. Daha sonra 2017-ci ildə Macarıstan sözügedən qanunu qəbul edib. Fransa, Belçika, Niderland və digər Avropa ölkələri də oxşar qanunu qəbul ediblər. Gürcüstan dövləti "xarici agentlər haqqında qanun" layihəsini qəbul etməyə hazırlaşır. Layihəni hakim "Gürcü Arzusu" partiyasını rəsmən tərk etmiş hökumətyönlü deputatlardan ibarət "Xalqın Gücü" qrupu təqdim edəcək. Onlar təşəbbüslərini elan edərkən layihənin "açıqlıq və şəffaflıq prinsiplərinə" əsaslandığını bildiriblər. Gürcüstan parlamentinin qanunu qəbul edəcəyi gözlənilir. Çünki, bir sıra KİV-lər, siyasi partiyalar, onlayn media, QHT-lər açıq şəkildə xarici dövlətlərdən maliyyələşir və maliyyə aldıqları dövlətlərin bəzi maraqları çərçivəsində çıxış edirlər. Bu isə hökuməti ciddi narahat edir. Gürcüstan parlamentinə təqdim oluna qanun layihəsində əks olunan müddüalar aşağıdakılardan ibarətdir:

- Gəlirinin 20%-dən çoxunu "xarici qüvvvələr"dən əldə edən hər hansı təşkilat "Xarici Qüvvələrin Agentlərinin Reyestrində" qeydiyyatdan keçməyə məcbur ediləcək və ya 25 min lariyə (16 min AZN) qədər cərimələnəcək.
- "Xarici qüvvələrin agentləri" hesab edilənlər illik gəlir bəyannamələrini mütləq təqdim etməli olacaqlar.
- Ədliyyə Nazirliyinin "xarici qüvvələrin agentləri" hesab etdikləri təşkilatları araşdırmaq və sənədləri əldə etmək səlahiyyəti olacaq.

Layihə müəlliflərinin iddialarına görə, bu təklifi hazırlayarkən Qərb nümunələri, o cümlədən ABŞ-ın FARA qanununa (Xarici agentlərin qeydiyyatı haqqında qanun) əsaslandıqlarını iddia edib. Bu qanun ABŞ hökumətinə lobbiçilik edən şəxslərdən və təşkilatlardan istənilən xarici maliyyə vəsaitini açıqlamağı tələb edir. Bununla yanaşı olaraq Gürcüstan dövləti "Media məkanında yalan və söyüşlərə qarşı qabaqlayıcı tədbirlərin görülməsini" qanun layihəsini qəbul etməyi planlaşdırır.

### Qanun qəbul edilsə, dağıdıcı müxalifət satqınçılıq etməkdən, xəyanət yolu tutmaqdan çəkinər

Bir sözlə görünən ondan ibarətdir ki, əksər ölkələr müxtəlif qüvvələrə və ölkələrə agentlik edən siyasi, ictimai təşkilatların ifşa edilməsi üçün qanunvericilik yolu ilə sərt tədbirlər görür. Niyə də ki, Azərbaycan dövləti beynəlxalq təcrübəyə uyğun olaraq analoji qanunların qəbul edilməsinə maraq göstərmir? Əgər belə bir qanun qəbul edilərsə, xarici maraqlı dairələrə agentlik edən AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli, Real sədri İlqar Məmmədov, Milli Şuranın üzvləri Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərlərinin meydanları daralar. Onlar hər an ifşa olunaraq həbs edilə biləcəklərini dərk edib, ayaqlarını kənara atmaqdan və satqınçılıq etməkdən, xəyanət yolu tutmaqdan çəkinərlər.

***İ.ƏLİYEV***

ANALIZ

**FELYETON**

# Salam verdim, devikdilər...

Noyabrın 21-i Beynəlxalq Salamlaşma Günüdür. Məncə bu günə ehtiyac yoxdur. Desəniz ki, başın xarab olub, nə danışırsan, salamlaşma günü düz 50 ildir ki, təsis edilib. Bu günün xüsusi mənası var. Baxmayaraq ki, bu, bizdən çox-çox uzaqlarda-Amerikada iki qardaşın ağlına gəlib, dünya ictimaiyyəti də xoş qarşıladığı üçün bəzi ölkələrdə, hətta Azərbaycanda da həmin gün az da olsa, yada salınır, qeyd olunur, salamlaşma gününün qaydalarına görə, həmin gün hələ hər kəs qarşısına çıxan şəxsə onu tanıyıb-tanımamağından asılı olmayaraq salam verə bilər, mən yenə deyərdim ki, bu günə ehtiyac yoxdur. Axı niyə yoxdur, deyərsinizsə, cavab verərdim ki, onsuz da bizdə salamı alan yoxdur, bu halda salam verməyə də ehtiyac yoxdur...



Məsələn, bir binada yaşayırsan. Düzdür, demirəm ki, burada hamı bir-birini tanıyır. Tanımasa da, bilir ki, bu mənimlə hər gün liftdə, pilləkəndə bir qalxıb-enirsə, burada yaşayır. Deməli, liftə daxil olursan, "salam, sabahınız xeyir",- deyirsən, camaat devikir. Sən də başını aşağı salıb bir az peşmanlıq hissi keçirib sonra deyirsən ki, salamımı cəhənnəmə al, gora al, salam Allahın adıdır, məndən demək.

Gedib iş-gücünün dalınca qayıdıb gəlirsən, yenə də üzündən gəlmir axı, başını salıb aşağıya liftə daxil olasan. Deyirsən, salam, axşamınız xeyir. Buradakılar yenə susur. Baxışlarından devikmək yağır...

Nə isə günlərlə salam verirsən, salamını alan olmur. Əksinə camaat devikir devikə bildikcə. Deyirsən, İlahi, mən nə qəbahət etdim ki, bunlar mənə belə tərs-tərs baxırlar. Bu baxışlar bilirsiniz nəyi ifadə edir? Sanki səndən qorxurlar ki, onları soymağa çalışırsan və yaxud pul-filan istəyəcəksən. Elə burada dahi şairimiz Məhəmməd Füzuli də yada düşür: salam verdim, rüşvət deyildi deyə, almadılar. Sonra da öz-özünə deyirsən ki, ölməz şair bunu 500 il bundan əvvəl deyib. Bunun da üstündən 5 yüzillik keçib, yəni 5 əsr. Bəs bu camaatın təfəkkürü heçmi dəyişməyib...

Vallah, bunlardan nə rüşvət istəyən var, nə də pul-filan. Sadəcə Allahın salamını bir-birimizə qonşuluqda nə üçün verməyək ki?..

Bu səbəbdən də deyirəm ki, qoy dünya 21 noyabrı salamlaşma günü kimi qeyd etsin, hələ üstəlik həmin gün bir-birini tanımayanlar da salamlaşsınlar. Bizə nə dəxli var bunun. Bizdə ki, adama salam verəndə devikir, gəlin camaatı salamla narahat etməyək. Onsuz da:

-Salam.
- Sabahınız xeyir.
-Salam.
-Axşamınız xeyir.

Belə olan halda, yaxşı, salamlaşmayaq.

***Mətanət Məmmədova***

# "Yaxşı kişini bir kişi yetişdirə bilər"



"Müasir dövrdə oğlan uşaqlarının formalaşması üçün onların cəmiyyətdə kişi cinsi ilə ünsiyyətdə olması daha münasib olar. Bir kişini hər zaman yaxşı bir kişi yetişdirə bilər. Qadının oğlan uşağına verəcəyi ən dəyərli şey onun sevgisi və qayğısıdır. Lakin kişinin həmcinsinə verəcəyi vacib məqam onun möhkəmliyi və qorxmazlığıdır". Bu sözləri SİA-ya psixoloq Aidə Nəbiyeva deyib.

Onun sözlərinə görə, ailələrdə ataların uşaqlarla az ünsiyyətdə olmasından şikayətlər olur: "Son illər məktəb və bağçalarda kişi müəllim və kişi tərbiyəçilərin sayının az olması bizi narahat edən başlıca məqamlardandır. Bu da xüsusən oğlanların kişi kimi formalaşmasına ciddi şəkildə mənfi təsir göstərir. Müşahidələr sübut edir ki, oğlan uşaqlarında cəsarət, qorxmazlıq kimi keyfiyyətlər azalıb. Bu problemin qarşısını almasaq, gələcəkdə oğlan uşaqlarında kişi cəsarəti, kişi danışığı, ünsiyyəti, möhkəmlik kimi xüsusiyyətlər az olacaq. Bu da gələcək nəslin formalaşmasına mənfi təsir göstərəcək".

Psixoloq sözlərinə davam edərək bildirib ki, 6 yaşından etibarən qız uşaqlarını qadın, oğlanları isə kişinin tərbiyə etməsi daha yaxşıdır: "Çünki bu yaş dövründən artıq insanlarda xarakter formalaşır, tərbiyənin əsas hissəsi başlayır. Bu yaşdan sonra uşaq cəmiyyətdə məxsus olduğu parçasına bənzəməyə çalışır. Onun gördüyü fiqur ancaq qadın olarsa, parçasını ancaq ona bənzədəcək və bu da onun psixologiyasına mənfi təsir edəcək. Nəzərə alsaq ki, bəzi ailələrdə ata faktoru yoxdur. Bu, gələcəkdə hər iki cütlüyün tərəfmüqabili ilə davranışında da özünü göstərəcək: "Məktəblərdə kişi müəllimlərinin az olması qızlara da mənfi təsir edir. Bundan başqa bu problem hər iki tərəfin gələcəkdə tərəfmüqabillərinə də davranışda çətinlik çəkməsinə səbəb olur. Çünki qarşılarında belə bir nümunə olmur. Bu qızların əks-cinsə qarşı münasibətlərinin formalaşmasına da təsir edir".



***Ləman Sərraf***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Ermənistan iki kresloda oturur: Plan nədən ibarətdir?

***Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, erməni tərəfi müxtəlif səbəblərdən KTMT və MDB-nin himayəsi altında keçirilən tədbirlərdə iştirak etməmək qərarına gəlib.***

Parlamentdə hökumət saatı zamanı hökumət başçısından respublika rəhbərliyinin nümayəndələrinin postsovet məkanında inteqrasiya strukturlarının iclas və sammitlərində iştirakdan imtinaları ilə bağlı çoxsaylı demarşlarının nə demək olduğu soruşulub. Faktiki olaraq belə boykot kursunu təyin edən Paşinyan qeyd edib ki, KTMT öhdəliklərinə zidd olaraq Ermənistanın təhlükəsizliyinə təhdidlərə lazımi cavab verməyib.

"Ermənistan cəmiyyəti başa düşmür ki, nəyə görə ölkə rəhbərliyi hər dəfə bu tədbirlərdə iştirak etməlidir, təhlükəsizlik problemləri qaldırmalı və sonra əliboş qayıtmalıdır"- deyən baş nazir bununla da respublikada ictimai rəyə istinad etdiyini göstərib. Paşinyan daha sonra KTMT-ni qınayıb ki, təşkilat Ermənistandakı məsuliyyət sahəsini de-yure müəyyən etməkdən imtina edir və rəsmi İrəvan görüşlərdə iştirak etməklə, Ermənistanın ərazi bütövlüyü və suverenliyini şübhə altına alan məntiqlə razılaşmış olardı.

Paşinyan əlavə edib ki, Ermənistan təhlükəsizlik əlaqələrini şaxələndirir. İrəvanın KTMT-dəki tərəfdaşları hazırda obyektiv səbəblər də daxil olmaqla, onu silahla təmin edə bilmirlər. "İndi deyirik: yaxşı, bizdən inciməyin, amma alternativ tərəfdaşlar tapmalıyıq. Biz bu tərəfdaşları axtarırıq və tapırıq, müqavilələr bağlayır, silah və hərbi texnika əldə etməyə çalışırıq".

Xarici siyasət kursuna gəlincə, Ermənistan KTMT-də qaldığı müddətdə bu kursda hər hansı dəyişiklik elan etmək fikrində deyil. "Bu, bizim siyasətimizdir. Strateji baxımdan biz KTMT-dən çıxmaq barədə qərar qəbul etməyənə qədər siyasətimizdə dəyişiklik elan etmək fikrində deyilik", - deyə Ermənistan lideri yekunlaşdırıb.

Təbii ki, çox qarışıq fikirlərdir. Yəni, Paşinyan, deyəsən, hərbi blokdakı tərəfdaşlarına açıq şəkildə bəyan edir ki, biz sizinləyik, amma sizə güvənmirik, ona görə də hər ehtimala qarşı yeni müttəfiqlər axtaracağıq. Lakin hələlik KTMT-ni tərk etmirik. Belə qəribə ifadə olunan mövqeyin arxasında nələrin dayandığını anlamaq asan deyil. Ermənistanın hakim komandası həqiqətən nə planlaşdırır?

Xarici analitiklər İrəvanın hərəkətləri haqda fikirlərini "Caliber" analitik mərkəzinə açıqlayblar. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.






**Yaxın Şərq üzrə ekspert, Moskva Dövlət Linqvistika Universitetinin xarici regionşünaslıq kafedrasının dosenti, tarix elmləri namizədi İkbal Dürre** hesab edir ki, nitqin özü, onun tərtib olunma tərzi Paşinyanın içində olduğu tam çaşqınlıq vəziyyətini çox gözəl əks etdirir.

*"Fransa Gürcüstanı Qafqazda özünün forpostuna çevirmək və bununla da Ermənistanı gücləndirmək üçün ABŞ-dan indulgensiya alıb"*

"Aydındır ki, Paşinyan bəlli səbəblərdən Rusiyaya və onunla bağlı olan hər hansı təşkilata, bloka güvənmir, digər tərəfdən kimə güvənəcəyi də bəlli deyil. Son onilliklərdə İraq hadisələrindən tutmuş Əfqanıstana qədər qlobal və regional hadisələrin fonunda, nəhayət, Yaxın Şərqdə baş verən son hadisələr fonunda ABŞ-ın rəhbərlik etdiyi Qərb bloku artıq öz tərəfdaşlarında əvvəlki etimadı ruhlandırmır. Bu, ümumiyyətlə, müxtəlif səbəblərdən Amerikaya güvənənlər arasında çaşqınlıq yaradır.





Paşinyan üçün vəziyyəti Türkiyənin NATO üzvü olması faktı daha da mürəkkəbləşdirir-hesab edirəm ki, bu kontekstdə əlavə izahata ehtiyac yoxdur".

Dosent xatırladıb ki, rus dilində belə hallar üçün yaxşı ifadə var-nəyi istəyirsən, onu da ağrısını çəkirsən. "Paşinyan başqasının bağında xoşbəxtlik istəyir". Amma bir sıra qlobal və regional amilləri nəzərə alsaq, bu, praktiki olaraq ümidsiz axtarışdır. "Mən başa düşürəm ki, o, müəyyən mənada daxili siyasi şəraitin girovudur. O, eyni zamanda xarici və daxili təzyiq altındadır.

Bəli, Rusiyanın Ermənistandakı hərbi müttəfiqini itirmək riski var, lakin bu vəziyyət faktiki olaraq Ermənistanın özünün təhlükəsizliyi üçün daha böyük risklər yaradır. Demək istəyirəm ki, o, nəhayət, Rusiya və KTMT ilə münasibətləri kəsərsə böyük risk altında qalar.

Təbii ki, Paşinyanın ölkəsinin lideri kimi istədiyi kimi hərəkət etmək hüququ var, amma mən onun yerində olsaydım, KTMT-də qalmaqda davam edərdim. Eyni zamanda, təbii ki, mən Azərbaycanla mövcud reallıqları nəzərə alaraq konstruktiv əlaqələr qurardım. Başa düşürəm ki, bu onun xəyal etdiyi şey deyil. Ancaq bu, nəzərə alınmalı olan bir reallıqdır.

Dünya təcrübəsi göstərir ki, heç kim kiçik ölkələrə, onların fikrincə, "təhlükənin" qaynaqlandığı ölkələrlə konstruktiv münasibətlər qurmaqdan daha böyük təhlükəsizliyə zəmanət verə bilməz",- Durre qeyd edib.







**Qırğızıstanlı politoloq və regional təhlükəsizlik eksperti Mars Sariyev** bildirib ki, onun fikrincə, Paşinyan fasilə verir.

"Ermənistan hələ KTMT-dən çıxmayıb və Cənubi Qafqazda vəziyyətin bundan sonra necə inkişaf edəcəyini gözləyir. Fakt budur ki, indi ABŞ və ümumilikdə Qərb bu regionda siyasətini dəyişir. Axı Ermənistan vaxtilə Qafqazda Qərbin təsir aləti kimi çıxış edib. Bu köhnə hekayədir ki, Vatikan "Ermənistan" adlı layihə yaratdı və bununla da Qafqazda türk mühitində regiondankənar qüvvələrin iradəsini həyata keçirməyə başlayan bir ölkə meydana çıxdı.

İndi Ermənistan müharibəni uduzdu, mən hesab edirəm ki, hərəkətlərdə düzəliş oldu və biz gördük ki, Fransa Gürcüstanı Qafqazda özünün forpostuna çevirmək və bununla da Ermənistanı gücləndirmək üçün ABŞ-dan indulgensiya aldı. Ona görə də biz indi əsasən bu ölkə prezidentinin hərəkətləri ilə Tbilisinin Fransaya müəyyən meylini görürük. Məqsəd budur: Gürcüstan Qərbin forpostuna çevrilərsə, o zaman həm Türkiyə, həm də Azərbaycanla münasibətlərdə dərhal kəskin soyuqlaşma müşahidə olunacaq və müvafiq olaraq, Ermənistanın mövqeləri möhkəmlənəcək. Onda Ermənistanın Gürcüstandan keçməklə Qərbə birbaşa çıxışı olacaq. Nəticədə Qərb Cənubi Qafqazı parçalaya biləcək ki, regionlar ölkələri Türkiyə ilə, türk ölkələri isə Rusiya ilə qarşı-qarşıya gəlsin",- Sariyev təhlil edir.

Ona görə də o hesab edir ki, Rusiya da bu vəziyyəti səssizcə müşahidə etməyəcək və Gürcüstanın güclü şəkildə Qərbə meyl etməyə başladığını hiss edən kimi, böyük ehtimalla ona hərbi təzyiq göstərəcək.

"Amma ümumilikdə Ermənistan gözləyir. Qərb Ermənistan və Gürcüstanın onun peykinə çevrilməsi kursunu götürüb və Paşinyanın çaşqın, məntiqsiz çıxışı məhz bununla bağlıdır- Cənubi Qafqazda vəziyyət dəyişir və hər şey Gürcüstanda hansı hadisələrin baş verəcəyindən, Tiflisdə hansı tendensiyanın qalib gələcəyindən asılıdır.

Düşünürəm ki, Moskva və Ankara vəziyyəti diqqətlə izləyir. Regionda yaranan qaynar nöqtə Gürcüstandır. Əgər bu ölkə ilə bağlı Qərb layihəsi uğur qazanarsa, o zaman Ermənistanın Avropaya çıxışı olan "pəncərəsi" yaranacaq. Üstəlik, gələcəkdə Gürcüstanı NATO-ya qəbul etmək istəyirlər. Əgər bu baş verərsə, o zaman Ermənistan üçün vəziyyət kəskin şəkildə dəyişəcək.

Ona görə də Ermənistana pauza lazımdır. Hesab edirəm ki, Paşinyanın açıqlamaları məhz bunu göstərir. İndi iki stulda oturublar. Əgər Qərbin Gürcüstandakı layihəsi uğursuz olarsa, Ermənistan KTMT-də və Rusiyanın təsir dairəsində qalacaq. Əks halda, o, tez bir zamanda özünü qərb istiqamətinə yönəldəcək", - ekspert yekunlaşdırıb.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
21 noyabr
2023-cü il

# Ali məktəblərdə dərslik problemi nədən qaynaqlanır?

***"Tələbələrin dərslikləri ilə bağlı təminatı vəziyyəti ciddi şəkildə araşdırılmalı, geniş miqyasda təhlil olunmalı, mövcud problemlərin səbəbləri üzə çıxarılaraq, bunların həlli istiqamətində müvafiq addımlar atılmalıdır". Bunu SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov bildirib.***



EKSPERT AÇIQLADI

Ekspert bildirib ki, dərslik dövlətin təhsil siyasətinin həyata keçirilməsində, yeniyetmə və gənclərin keyfiyyətli təhsil almasında başlıca vasitələrdən biridir: "Bu sahənin uzun illərdən bəri həllini gözləyən əsaslı problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərin məntiqi nəticəsi olaraq, son on illiklərlə müqayisədə, dərslik siyasətinə fərqli baxış formalaşıb. Belə ki, dərsliklərin keyfiyyətini artırmaq üçün ehtiyat dərsliklərin hazırlanması ilə bağlı Təhsil Nazirliyinin hökumətə təqdim etdiyi qərar layihəsi qəbul edilib.



Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə quruma hazırda istifadə olunan dərslikllərdən əlavə, ehtiyat dərsliklərin hazırlanması səlahiyyəti verilib. Bu məqsədlə Təhsil İnstitutunda Tədris Resursları Mərkəzi yaradılıb və ehtiyat dərsliklərin hazırlanmasına başlanıb. Ehtiyat dərslik hazırlanmasında isə tamamilə fərqli situasiya - rəqabət deyil, əməkdaşlıq mühiti şəraitində aparılır. Onlayn formada və ya əvvəlcədən yükləməklə dərslikləri elektron versiyada oxumaq, onlayn rejimdə dərsliyin istənilən səhifəsində müvafiq lazımi elektron qeydlər aparmaq imkanı qazanılır. Bu sahədə aparılan işlər təqdirəlayiqdir və mərhələlər üzrə davam etdirilməlidir.

N.İsrafilovun sözlərinə görə orta məktəblərlə müqayisədə ali məktəblərdə dərsliklərin hazırlanması və tələbələrə çatdırılması proseduru fərqlidir: "Universitetlərdə dərsliklərin tender yolu ilə hazırlanması və tələbələrə pulsuz çatdırılması kimi konkret standartlar yoxdur və bu məqsədlə konkret tələblərin qoyulması da bu gün üçün o qədər də real görünmür. Universitet rəhbərliyinin təhsil sahəsində ən önəm verdiyi məsələlərdən biri tələbələrin dərs vəsaiti və elmi ədəbiyyatla təchiz olunması məsələsidir. Müşahidələr göstərir ki, ayrı-ayrı universitetlərdə professor – müəllim heyətinin elmi kitab, dərslik, dərs vəsaiti, elmi məqalə dərc etdirməsi ilə əlaqədar elə gə bir problemi yoxdur. Çünki, bəzi universitetlərdə bir alimin, müəllimin elmi dərslik, dərs vəsaiti və ya tədqiqat nəşri hazırlayıb başa çatdırması üçün bütün lazımı şəraiti yaradıb. Kafedralarda müzakirədən keçmiş kitab, dərslik və dərs vəsaitinin universitetin öz büdcəsi hesabına nəşr olunması üçün Elmi Şuralar fəaliyyət göstərir. Bəzi universitetlərdə öz əməkdaşları tərəfindən yazılan dərsliklərdən, Bəzi universitetlərdə xarici müəlliflərin dərsliklərinin Azərbaycan dilinə tərcüməsindən istifadə olunur. Elmi Şuranın təşkil etdiyi komissiyalar tərəfindən kafedralar üzrə dərslik, dərs vəsaiti və proqramların mövcud vəziyyəti davamlı yoxlanılır.

Proqram və dərsliklərin hər 5 ildən bir yenilənməsi zəruri hesab olunur. Nəşr olunduqdan sonra dərslik, dərs vəsaiti və elmi ədəbiyyat ilk növbədə tələbə və müəllimlərinin ehtiyacını ödəmək üçün universitetin mərkəzi kitabxanasına və respublikamızda mövcud olan digər kitabxanalara verilir. Bir çox universitetlərimiz zəngin elektron kitabxana ilə təchiz olunub, onlayn sistem əsasında fəaliyyət göstərir. Bu kitabxanalardan minlərlə tələbə mütamadi olaraq istifadə edir. Bununla belə bütün universitetlər barədə bu sözü demək olmaz. Xüsusilə xaricdə nəşr olunan elmi ədəbiyyatın əldə edilməsində çətinliklər mövcuddur. Elmi-kütləvi ədəbiyyatın individual şəkildə əldə edilməsi də çətin və bahalı olaraq qalmaqdadır".

***Rəşid Qarayev***

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Qış turizm mərkəzlərində istirahət nə qədər əlverişlidir?



EKSPERT AYDINLIQ GƏTİRDİ

"Qış turizm mövsümünün hələ elan olunmamasına baxmayaraq, demək olar ki, bir neçə gündən sonra qış turizmi aktuallaşacaq. Qış turizmi dedikdə isə sadəcə dağ, xizək yox, təbiətin seyri, qara şahid olmaq, qış turizm fəaliyyəti ilə məşğul olmaq nəzərdə tutulur". Bu sözləri SİA-ya açıqlamasında turizm üzrə ekspert Ceyhun Aşurov bildirib. Onun sözlərinə görə, Azərbaycanda xizəklə bağlı dünya standartlarına cavab verən Şahdağ və Tufandağ kimi 2 böyük mərkəz var: "Təkcə, xizəkdən istifadə etmək yerlərinin məhdud olmasına baxmayaraq, oraya yaxınlıqda qalıb həmin təsisatın imkanlarından istifadə etmək olar. Xüsusilə, tətil günləri və qeyri-iş günlərində bu sahəyə tələbat daha da artır".

Ekspert bildirib ki, qiymətlərin keçən ilə nisbətən baha olma ehtimalı yoxdur: "Çünki hər il artan tələbatla əlaqədar olaraq, bazarda yeni təsisatlar, yerləşdirmə yerləri açılır, otellərin tikintisinə başlanılır. Məhz belə yerlərdə adı çəkilən müəssisələrdə qalmadan da həmin əraziyə yaxın olan kənd evlərində, yeni açılan otellərdə daha münasib qiymətə qalmaq imkanı var. Bu imkanlardan yerli və xarici turistlər yararlanırlar. Qış fəsli yaşanmayan ölkələrin vətəndaşları qışı yaşamaq, qarı görmək üçün Azərbaycan kimi ölkələrə gəlirlər, dağlıq rayonlarda qarı seyr edib, oynayıb, əylənirlər".

"Turizm sektoru hər il olduğu kimi qış mövsümünə hazırdır: "Xüsusilə, qarşıda olan tətillər, yeni il ərəfəsində təsislər, müxtəlif şou proqramlar hazırlanır. Bildiyimiz kimi, pandemiya dövründə bunlar mümkün deyildi, toplaşmaq qadağan idi. Son bir neçə ildir ki, belə proqramlar hazırlanır və əhaliyə təklif olunur. Hər il bu cür proqramları hazırlayan restoranlar, böyük otellərdə olan proqramların sayında artım görünür ki, bu da turistlərimiz üçün əlavə seçim imkanları yaradır. Hər kəs öz büdcəsinə uyğun, müqayisəli olaraq daha əlverişli əyləncə imkanlarından faydalana bilirlər", - deyə ekspert əlavə edib.

***Ləman Sərraf***

# Napoleonun papağı rekord qiymətə satıldı



Fransanın keçmiş imperatoru Napoleon Bonaparta məxsus qara papaq Parisdə keçirilən hərracda 1,9 milyon avroya satılıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, hərrac Fransanın paytaxtı Parisin cənubundakı Fontainebleau qəsəbəsində Osenat hərrac evində keçirilib.

Dünən keçirilən hərracda keçmiş Fransa imperatoru Napoleon Bonaparta məxsus qara papaq 1,9 milyon avroya satılıb. Osenat dünənki paylaşımında papağın 600-800 min avroya alıcı tapacağının gözlənildiyini bildirib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000